HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

Vergilər

№ 21 (915) ▪ 6 iyun 2018 www.vergiler.az Qiymәti: 60 qәp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Prezident İlham Əliyevin Goranboy rayonuna və Naftalan şəhərinə səfəri

İyunun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Goranboy rayonuna səfər edib. Dövlətimizin başçısı Goranboy şəhərində ulu öndər Heydər Əliyevin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, önünə gül dəstəsi qoyub.



Səfər çərçivəsində dövlətimizin başçısı Goranboy rayonu Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolunun açılışında iştirak edib. Bildirilib ki, 12 min nəfər əhalinin yaşadığı 5 məntəqəni birləşdirən bu yol sakinlərin rahat gediş-gəlişini təmin edəcək, həmçinin Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolu vasitəsilə respublikamızın istənilən istiqamətinə hərəkət etməyə imkan verəcək. Avtomobil yolunun tikintisi əhatə etdiyi 5 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılması ilə yanaşı, bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında da mühüm rol oynayacaq. Prezident İlham Əliyev Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun da yenidənqurma və bərpadan sonra açılış mərasimində iştirak edib.

Sonra dövlətimizin başçısı Goranboy rayonunda hər biri 40 meqavolt amper gücündə olan iki transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq 2x40 MVA gücündə «Dəliməmmədli» yarımstansiyasının açılışında iştirak edib. Bildirilib ki, bu yarımstansiya vasitəsilə Dəliməmmədli şəhərinin və ətraf 21 yaşayış məntəqəsinin, o cümlədən 35 kilovoltluq «Azad» hava xətti üzərində olan 35/10 kilovoltluq «Azad» və 35/10 kilovoltluq «Alıuşağı» yarımstansiyalarının elektrik enerjisi ilə təchizatı həyata keçirilir. 40 meqavolt amper gücündə olan iki transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq «Kürəkçay» yarımstansiyasında 40 MVA gücündə iki transformator, 110 kilovoltluq 5 dəst müasir tipli eleqaz açar, müasir tipli İdarəetmə mərkəzi, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular və 34 yuva quraşdırılıb. Ümumilikdə «Kürəkçay» yarımstansiyası vasitəsilə 20 min abonent - 100 mindən artıq əhali elektrik enerjisi ilə təchiz edilir.

Səfər çərçivəsində dövlətimizin başçısı Goranboy rayonunda fəaliyyət göstərən «Region Agropark»ın açılışında iştirak edib, kollektivlə görüşüb və aqroparkda ilk buğda biçini prosesini izləyib. Sonra Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 kilometrlik hissəsinin açılışında iştirak edib, qurğunu işə salıb.

Goranboyda Bayraq Muzeyinin istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə iştirak edən dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsib. Bildirilib ki, Bayraq Muzeyi Bayraq meydanının ərazisində yerləşir. Meydanda hündürlüyü 72 metr olan dövlət bayrağının postament hissəsi abadlaşdırılıb, ərazidə yaşıllaşdırma işləri aparılıb, işıq dirəkləri quraşdırılıb, fəvvarələr əsaslı təmir edilib. Muzeydə sərgi zalı ilə yanaşı, inzibati və yardımçı otaqlar yaradılıb. Sərgi zalında Azərbaycan xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, orta əsr xanlıqlarının bayraqları, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar nümayiş olunur. Bundan başqa, muzeyin eksponatları arasında Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid rəsmi sənədlər, Azərbaycan SSR dövründə və müstəqillik illərində qəbul olunmuş konstitusiyalar, habelə gerblər, bayraqlar, poçt markaları, orden və medallar sərgilənir.

İyunun 5-də Goranboy rayonuna səfərini başa vuran Prezident İlham Əliyev Naftalan şəhərinə gəlib. Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Naftalan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Səfər çərçivəsində Prezident İlham Əliyev Naftalan Şəhər Mərkəzi Xəstəxanasının açılışında iştirak edib, xəstəxana binasının rəmzi açılışını bildirən lenti kəsib. Bina ilə tanışlıqdan sonra dövlətimizin başçısı şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsi üçün inşa edilmiş hərbi şəhərcikdə yaradılan şəraitlə tanış olub. Şəhərciyin inşasına 2015-ci ilin yanvarında başlanılıb və 2017-ci ilin fevralında tikinti işləri başa çatdırılıb. Hərbi şəhərcikdə 28 yaşayış və qeyri-yaşayış binası, 350 avtomobil və zirehli texnikanın saxlanması üçün park inşa edilib. Ərazidə qərargah binası tikilib. Binadakı 28 xidməti otaqda hərbi qulluqçular üçün zəruri şərait yaradılıb. Otaqların hamısı lazımi avadanlıqla təchiz olunub. Hərbi şəhərcikdə 120 nəfərlik 8 və 150 nəfərlik 1 əsgər yataqxanası tikilib. Yataqxanalarda əsgərlərin rahatlığı üçün hərtərəfli şərait yaradılıb. Burada subaylar üçün 126 nəfərlik 3 yataqxana, zabitlər üçün 14 mənzilli 2 yaşayış binası inşa olunub. Əsgər yeməkxanası da yüksək səviyyədə qurulub. Burada 1500 hərbi qulluqçunun dolğun qidalanması üçün geniş imkanlar var. Hərbi şəhərcikdə çörəkbişirmə məntəqəsi də fəaliyyət göstərir. Hərbi qulluqçuların istirahəti ilə yanaşı, onların asudə vaxtlarının səmərəli təşkili üçün şəhərcikdə bütün tədbirlər görülüb. Ərazidə inşa olunan trenajor binasında atış və sürücülük məşqlərinin keçirilməsi üçün 4 tank və 6 piyada döyüş maşını təlim-məşq qurğusu quraşdırılıb. 500 yerlik klub binasında ölkəmizin, eyni zamanda hərbi hissənin həyatında baş verən əlamətdar günləri qeyd etmək mümkün olacaq. Şəhərcikdə yaradılan hamam-camaşırxana-qazanxana kompleksi də müasirliyi ilə seçilir.

# Azərbaycan İslam mədəniyyətinin təbliğində əvəzsiz rol oynayır

Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib.



Görüşdə çıxış edən dövlətimizin başçısı bildirib ki, Azərbaycan bütün müsəlman ölkələri ilə daim sıx əməkdaşlıq edir: «Xüsusilə BMT-dəki əməkdaşlığı qeyd etmək istərdim. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımız çox uğurludur. Biz digər beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq edirik, bir-birimizi daim dəstəkləyirik».

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı haqlı mövqeyimizi dəstəklədiklərinə görə dost müsəlman ölkələrinə minnətdarlığını ifadə edib. Vurğulayıb ki, beynəlxalq birlik tərəfindən tanınan Azərbaycanın tarixi, əzəli torpaqları erməni işğalı altındadır: «Bu işğal nəticəsində 1 milyondan artıq azərbaycanlı doğma torpaqda qaçqın-köçkün vəziyyətinə düşüb. Bizim şəhərlərimiz, kəndlərimiz ermənilər tərəfindən dağıdılıb. Muzeylərimiz talan edilib. Tarixi, dini abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş vandallıqdır. Xalqımıza qarşı ermənilər Xocalı soyqırımı törədiblər. Ondan çox ölkə bu soyqırımını rəsmi qaydada qəbul edib. Münaqişənin tezliklə həlli bölgəyə sabitlik, sülh gətirəcək. Münaqişənin tezliklə həlli üçün, ilk növbədə, Ermənistan öz işğalçı qüvvələrini işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarmalıdır və dünyanın ən ali qurumu olan BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etməlidir».

Dövlətimizin başçısı ölkəmizin beynəlxalq təşkilatlarda bütün müsəlman ölkələrinin maraqlarını dəstəkləyən qərar və qətnamələrə dəstək verdiyini, onların bir çoxunun təşəbbüskarı olduğunu diqqətə çatdırıb: «Bizim üçün İslam həmrəyliyini möhkəmləndirmək xarici siyasətimizin əsas prioritet məsələlərindən biridir. Biz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüyük. Bildiyiniz kimi, keçən il Azərbaycanda «İslam Həmrəyliyi İli» elan olunmuşdur. Ölkələrinizin iştirakı ilə Bakıda mötəbər IV İslam Həmrəylik Oyunları keçirilmişdir. Bu Oyunlar, sadəcə olaraq, idman yarışı deyil, eyni zamanda, İslam dünyasının birliyini nümayiş etdirib və biz çalışmalıyıq ki, İslam aləminin birliyini tam təmin edək».

Prezident İlham Əliyev qeyd edib ki, bu il Azərbaycanın qədim şəhəri olan Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi çox qürurvericidir: Azərbaycan İslam mədəniyyətinin dünyada təqdim edilməsində də mühüm rol oynayır: «Bir çox Avropa ölkələrində keçirdiyimiz sərgilər, təqdimatlar, digər mədəni tədbirlər İslam mədəniyyətini təbliğ edir, İslam dəyərlərini təcəssüm etdirir. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik».

Sonra çıxış edən Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı səfiri Nasir Əbdül Kərim Əbdül Rəhim müqəddəs Ramazan bayramı münasibətilə Azərbaycan Prezidentini təbrik edib, müsəlman ölkələrini bir-birinə bağlayan qardaşlıq əlaqələrinin inkişafına təkan vermək məqsədilə keçirilən bu cür görüşlərin əhəmiyyətinə toxunub. Qeyd edilib ki, bu müqəddəs ayda müsəlmanlar sülh, həmrəylik şəraitində bir araya gəlməklə İslamın şərəfli dəyərləri olan ruh və fikrin qidalanmasına çağırış edilir və bu ay bizi birliyə, mənəvi rahatlığa, yüksəlişə və xeyirxahlığa doğru aparır.

Səfir xüsusi olaraq vurğulayıb ki, müsəlman ümməti Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq qətnamələrin, BMT-nin qəbul etdiyi bütün qətnamələrin şəffaf və qeyd-şərtsiz icrasının tərəfdarı olmaqla onun yanında durur: «Bu müqəddəs ayda biz işğal olunmuş bütün müsəlman ərazilərinin və müqəddəs yerlərin öz həqiqi sahiblərinə qayıdacağı və ümmətimizin terror və xaosu yayan, İslamın adına ləkə gətirən bədxah və cahil qüvvələrə qalib gələcəyi günün yaxın olduğunu arzulayırıq. Bununla da bəzi müsəlman ölkələrinin üzərində olan qara buludlar aradan götürüləcək. Eyni zamanda, qardaş ölkələrimiz arasında birliyi və harmoniyanı bərpa etmək üçün fikir ayrılıqları aradan qaldırılacaq. Bu da bizə insan sivilizasiyası, innovasiyalar və tərəqqiyə mühüm töhfə verən tərəf kimi öz həqiqi yerimizi yenidən tutmaq imkanını verəcək».

## Rəsmi xronika

- İyunun 4-də Prezident İlham Əliyev İran İslam Respublikası Prezidenti Aparatının rəhbəri Mahmud Vaezini qəbul edib. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edən dövlətimizin başçısı Prezident Həsən Ruhaninin Azərbaycana son səfərini məmnunluqla xatırlayıb və səfərin çox uğurlu olduğunu, əldə edilmiş razılaşmalar və imzalanmış sənədlərin böyük önəm daşıdığını bildirib.
  İran-Azərbaycan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan qonaq, bu baxımdan, İran Prezidenti Həsən Ruhaninin Azərbaycana səfəri zamanı əldə olunmuş razılaşmaların böyük önəm kəsb etdiyini bildirib, hər iki ölkə arasında müxtəlif sahələrdə səmərəli əməkdaşlığın məmnunluq doğurduğunu ifadə edib.

- Prezident İlham Əliyev mayın 31-də Avropa Komissiyasının büdcə məsələləri və insan resursları üzrə komissarı Günter Ottingerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Cənub Qaz Dəhlizi layihəsinin reallaşmasında Avropa İttifaqının dəstəyini və şəxsən Günter Ottingerin verdiyi töhfəni yüksək qiymətləndirib. Söhbət zamanı siyasi, iqtisadi, humanitar, mədəni və bütün digər sahələrdə əməkdaşlığın davam etdiriləcəyinə ümidvarlıq ifadə olunub, enerji, investisiya, nəqliyyat dəhlizlərinin yaradılması və inkişafı, ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

- Prezident İlham Əliyev mayın 31-də ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini xanım Bricet Brinki qəbul edib. Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi qeyd olunub. Dövlətimizin başçısı ABŞ Prezidenti Donald Trampın ikitərəfli münasibətlərimizlə bağlı ifadə etdiyi fikirlərə görə minnətdarlığını bildirib və bunun əlaqələrimizin yüksək səviyyədə olmasını nümayiş etdirdiyini vurğulayıb. Söhbət zamanı Azərbaycanın beynəlxalq terrorizmlə mübarizəyə töhfəsi, o cümlədən Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakı yüksək qiymətləndirilib, energetika sahəsində əlaqələr, regional əməkdaşlıq və demokratiyanın inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Strateji tərəfdaşlıq münasibətləri genişlənir
səh. 2

Qanunu pozanlara qarşı ciddi tədbirlər görülür
səh. 3

Nağdsız cəmiyyətə keçid maliyyə sektorunda şəffaflığı təmin edir
səh. 4

Dövlətin sabahı, millətin gələcəyi...
səh. 5

# Strateji tərəfdaşlıq münasibətləri genişlənir

## İyunun 5-də Bakıda Azərbaycan - Avropa İttifaqı biznes forumu keçirilib

Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyi və Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK) tərəfindən təşkil olunmuş tədbirdə çıxış edən Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas bildirib ki, təmsil etdiyi qurum Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır. Tərəflər arasında siyasi və iqtisadi əlaqələr davamlı şəkildə artır, Aİ ölkələrinin şirkətləri Azərbaycandakı biznes mühitinin səmərəliliyini və cəlbediciliyini nəzərə alaraq, iqtisadiyyatın müxtəlif sahələrində fəallığını və investisiya qoyuluşlarını artırmaq niyyətindədir. K.Yankauskasın sözlərinə görə, «Şərq Tərəfdaşlığı» proqramı Azərbaycanla Aİ arasında ikitərəfli münasibətlərin gələcəyinə müsbət zəmin yaradır.

İqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov qeyd edib ki, Aİ Azərbaycanın əsas xarici tərəfdaşıdır, ölkənin xarici siyasətində Avropa ilə əməkdaşlığın inkişaf etdirilməsinə ciddi əhəmiyyət verilir, həm siyasi, həm də enerji, ticarət, investisiyalar daxil olmaqla iqtisadi sahələrdə əlaqələr möhkəmlənir. 2017-ci ildə Aİ ölkələrinin Azərbaycanın xarici ticarətindəki payı 42% olub və 9,4 milyard dollar təşkil edib. 2018-ci ilin ilk 4 ayında isə bu göstərici 15% təşkil etməklə 3,7 milyard dollar olub. Son 5 ildə Aİ şirkətləri tərəfindən Azərbaycana 15,3 milyard dollar investisiya yatırılıb.

Nazir müavini vurğulayıb ki, hazırda Azərbaycanda Aİ ölkələrinə aid 1500-dən çox şirkət fəaliyyət göstərir. Almaniya, Fransa, Avstriya, İtaliya, Yunanıstan, Polşa və digər ölkələrin Azərbaycanda ticarət palataları fəaliyyət göstərir. Avropa İttifaqının 24 üzv ölkəsi ilə ikiqat vergitutmanın aradan qaldırılması, 17 üzv ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması sazişləri, 9 üzv ölkə ilə Strateji Tərəfdaşlıq bəyannamələri imzalanıb. 16 üzv ölkə ilə 17 hökumətlərarası komissiya və işçi qrup, idarəetmə komitəsi fəaliyyət göstərir. Azərbaycan Aİ ilə tvinninq, TAIEX, SIGMA, texniki dəstək, büdcəyə dəstək alətləri çərçivəsində də əməkdaşlıq edir və indiyədək ölkəmizə 600 milyon avroya yaxın yardım göstərilib.

Avropa Komissiyasının Şərq Qonşuluğu (Şərq Qonşuluğu və Danışıqların Genişlənməsi (DG NEAR) üzrə baş direktoratına daxildir) üzrə direktoru Lourens Meredit bildirib ki, Azərbaycan ilə Aİ arasında münasibətlər strateji tərəfdaşlıq mahiyyəti daşıyır: «Azərbaycan və Avropa ölkələri arasında iqtisadi münasibətlər biznes mühitinin yaxşılaşdırılması üçün qarşıya çıxan maneələrin aradan qaldırılmasında bir fürsətdir. Aİ ölkələrinin Azərbaycan üçün çağırışları bütün üzv ölkələrə aiddir. Bunlardan biri müasir texnologiyalar və innovasiyalardan istifadə ilə bağlıdır, digəri isə investisiyaları əhatə edir. Biz elə bir sxem qurmalıyıq ki, 2021-ci ilə qədər Şərq Qonşuluğu və Danışıqların Genişlənməsi çərçivəsində investisiyalar 30 milyard dollara çata bilsin».

Forumda çıxış edən Azərbaycan Respublikasının vergilər naziri Mikayıl Cabbarov vergi sistemində aparılan islahatlar və dəyişikliklərlə bağlı açıqlamalar verib. Qeyd edilib ki, vergi sistemində islahatları həyata keçirərkən vergi ödəyicilərinin, iş adamlarının, investorların bu və ya digər məsələlərlə bağlı düşüncələri və ictimai müzakirələrin əhəmiyyəti nəzərə alınır. Vergilər Nazirliyi bununla bağlı keçirilən müxtəlif araşdırmaları diqqətlə izləyir və biznes mühitinin öyrənilməsinə yönəlmiş tədqiqatları yüksək dəyərləndirir.

Vergilər naziri vurğulayıb ki, vergi qanunvericiliyində və inzibatçılığında islahatlar həyata keçiriləcək, lakin iş adamlarının bu islahatlardan məmnun qalıb-qalmayacağı onların öz bizneslərini hansı dərəcədə şəffaf həyata keçirməsi ilə birbaşa bağlı olacaq. Forumda iştirak edən biznes nümayəndələrinin 60-70%-nin ƏDV ödəyicisi olduğunu bildirən nazir ölkədəki fəal vergi ödəyicilərinin cəmi 3%-nin ƏDV ödəyicisi olduğunu diqqətə çatdırıb.




> Biznes strukturlarının vergi islahatlarından məmnunluğu onların şəffaf fəaliyyəti ilə birbaşa bağlı olacaq

Vergilər Nazirliyinin islahatlara yeni yanaşması barədə danışan M.Cabbarov biznes sferasında müşahidə olunan 3 böyük problemi vurğulayıb: «Bunlar dövriyyə, hesabatlılıq və əməkhaqqının qeydiyyatında ciddi azaldılmalarla bağlıdır. Biz məsələyə bu kontekstdən baxırıq və vergi islahatları paketinin əsas istiqamətləri bu kontekstdən çıxış edilməklə təklif olunacaqdır».

Qeyd olunub ki, kiçik və orta sahibkarlıq üçün əhəmiyyətli vergi güzəştləri veriləcək. Burada həm vergi inzibatçılığının sadələşdirilməsi, həm də vergi yükünün azaldılması nəzərdə tutulur. Digər tərəfdən, vergi orqanları hesabatlılığa dair ümumi tələblərin artırılması istiqamətində də addımlar atacaq. Bu da öz növbəsində özəl sektorda, xüsusilə qeyri-neft sektorunda fəaliyyət göstərən müəssisələr üçün ümumi vergi yükünün azaldılması ilə müşayiət ediləcək.

«Kölgə iqtisadiyyatı»nın səviyyəsinin azaldılmasına yönəlmiş tədbirlərin bu sahədə müsbət rol oynayacağına əminliyini ifadə edən M.Cabbarovun sözlərinə görə, vergi yoxlamalarının sayı ilə keyfiyyəti arasında əlaqə fərqli şəkildə qurulmalıdır. Bu ilin ilk 4 ayında Vergilər Nazirliyi tərəfindən keçirilən səyyar vergi yoxlamalarının dinamikasına əsasən, onların sayı ötən ilin müvafiq dövrünə nisbətən 40% azalıb və bu siyasət davam etdiriləcəkdir.Vergilər naziri biznes nümayəndələrinə və onların ictimai təşkilatlarına müraciət edərək, vergi sahəsi ilə bağlı bütün təkliflərini nazirliyə ünvanlamağa çağırıb.

Tədbir iştirakçıları öz çıxışlarında Aİ ilə Azərbaycan arasında uğurlu əməkdaşlığın müxtəlif sahələri haqqında danışaraq, işgüzar münasibətlərin daha da yaxşılaşdırılması üçün təkliflər irəli sürüblər.

Forumun işi panellərdəki müzakirələrlə davam etdirilib. İş adamları arasında əməkdaşlığın genişləndirilməsi imkanları, müxtəlif sahələr - kənd təsərrüfatı və qida, nəqliyyat və logistika, İKT və elektron ticarət, iqtisadi islahatlar, ətraf mühit texnologiyaları sahəsində əlaqələrin qurulması üçün ikitərəfli görüşlər keçirilib.

# İsrailin Azərbaycandakı səfiri Vergilər Nazirliyində olub

Mayın 31-də vergilər naziri Mikayıl Cabbarov İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav və onu müşayiət edən nümayəndə heyəti ilə görüşüb.

Görüşdə cari ilin may ayında İsraildə keçirilmiş «Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiya»nın ilk iclasında müzakirə edilmiş məsələlər, ölkələrimiz arasında ticari-iqtisadi əlaqələrin inkişafı, kənd təsərrüfatı, yüksək texnologiyalar, alternativ enerji və təhsil sferalarında əməkdaşlıq, İsrailin işgüzar dairələrinin və sərmayəçilərinin ölkəmizin sosial-iqtisadi inkişaf layihələrində iştirakı barədə fikir mübadiləsi aparılıb.

Tərəflər Azərbaycan və İsrail arasında vergitutma sahəsində əməkdaşlığın perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri də müzakirə ediblər.

# Vergilər naziri Şamaxıda vətəndaşları qəbul edib

Mayın 30-da vergilər naziri Mikayıl Cabbarov 4 saylı Ərazi Vergilər İdarəsinin Şamaxı şəhərində yerləşən inzibati binasında vətəndaşlarla görüşüb.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin may ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən görüşdə Şamaxı, Ağsu və Qobustan rayon sakinləri iştirak ediblər.

Görüş zamanı vətəndaşlar əsasən vergi orqanlarına işə qəbul, strukturlarda iş yerlərinin dəyişdirilməsi, vergi inzibatçılığı və digər məsələlərlə əlaqədar müraciət ediblər.

Qəbulda vətəndaşların müraciətləri dinlənilib, əksər məsələlər yerindəcə həllini tapıb, bir sıra müraciətlərlə bağlı nazirliyin struktur bölmələrinə tapşırıqlar verilib.

# İnvestisiyalar sahibkarlığın inkişafına təkan verir

2018-ci ilin yanvar-aprel aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş 4 milyard 160,1 milyon manat vəsaitin 2 milyard 281,6 milyon manatı və ya 54,8%-i qeyri-neft sektoruna sərf edilib və bu sektorda investisiyaların həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 42,5% artıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, ümumi sərmayənin 73,3%-i bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilib, istifadə olunmuş vəsaitin 73,6%-i məhsul istehsalı obyektlərinin, 20,7%-i xidmət sahələri üzrə obyektlərin, 5,7%-i isə ümumi sahəsi 518,9 min kvadratmetr olan yaşayış evlərinin tikintisinin payına düşüb. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 52,4%-ni təşkil edib.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 55,6%, bank kreditləri 15,9%, büdcə vəsaitləri 22,2%, əhalinin şəxsi vəsaitləri 5,4%, büdcədənkənar fondların vəsaitləri 0,5%, sair vəsaitlər isə 0,4% təşkil edib..

İqtisadçı ekspert Vüqar Bayramovun sözlərinə görə, sahibkarlığın inkişafı birbaşa investisiya cəlbindən və investisiya layihələrinin sayından asılıdır: «Azərbaycan həm xarici, həm də yerli investisiya mənbələrindən istifadə etməklə sahibkarlığın inkişafını dəstəkləyən ölkələrdəndir. Statistik məlumatlara diqqət yetirsək, son dövrlərdə investisiya qoyuluşlarının məbləğlərindəki artımı görə bilərik. Neftin barel qiymətinin aşağı olmasına baxmayaraq, investisiya qoyuluşlarındakı artım tempinin qorunub saxlanıldığı müşahidə edilir. Manat ifadəsində investisiya qoyuluşlarında artım tempi də qorunub saxlanılıb. 2015-ci ildə 20 milyarda yaxın investisiya qoyuluşu həyata keçirilmişdirsə, 2016-cı ildə bu rəqəm 22 milyarddan artıq olmuşdur. 2017-ci ildə də artım tempi davam etdirilib. Artıq investisiya layihələrinin maliyyələşməsində Azərbaycan yeni metoddan istifadə edir».

V.Bayramov qeyd edib ki, Ələtdə xüsusi statuslu azad iqtisadi zonanın yaradılması bu baxımdan diqqəti cəlb edən məsələlərdəndir: «Bu, artıq investisiyaların, xüsusən də xarici investisiyaların cəlb olunması üçün yeni yanaşmanın nümayiş etdirilməsi anlamına gəlir. Azərbaycan yeni mexanizmlərdən istifadə etməklə xarici investisiyaların qeyri-neft sektoruna cəlb olunmasını və bütövlükdə sahibkarlığın inkişafını dəstəkləyir ki, bu da dövlət gəlirlərinin artırılması baxımından vacib əhəmiyyət kəsb edir. Azad iqtisadi zonaların yaradılması Azərbaycana mövcud potensialdan istifadə və yeni mexanizmlər tətbiq etməklə sahibkarlığın inkişafını dəstəkləməyə imkan verir. Bu isə qeyri-neft sektorunda investisiya layihələri hesabına sahibkarlığın dəstəklənməsi baxımından yeni yanaşma kimi qiymətləndirilməlidir. Yerli mənbələrdən investisiya qoyuluşlarının həyata keçirilməsi və investisiya layihələrinin yeni mənbələr hesabına maliyyələşməsi də prioritetə çevrilib. Xüsusilə regionlarda investisiya layihələrinin sayının artırılması və sahibkarlığın dəstəklənməsi hazırda dövlətin əsas hədəflərindəndir».

**F. İKRAMQIZI**

# Əməkhaqqından vahid vergi

Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanda Sahibkarlar Gününə həsr edilmiş konfransda çıxış edən vergilər naziri Mikayıl Cabbarov vergi sistemi üçün inqilabi dəyişiklik olacaq əməkhaqqından vahid vergi yükü haqqında məlumat verib: «Bu, cənab Prezidentin tapşırığı ilə vergi yükünün azaldılmasına və işçilərin əməkhaqlarının vergiyə cəlb edilməsinin sadələşdirilməsinə yönəldilən islahatdır. İslahat əməkhaqqına tətbiq olunan vahid vergi yükünün müəyyənləşdirilməsini nəzərdə tutur». Nazirin sözlərinə görə, vahid vergi yükünün tətbiqində məqsəd işəgötürənləri əməkhaqlarını leqallaşdırmağa sövq etməkdir: «Hazırda vergi ödəyicisi əməkhaqqı ödənişi ilə bağlı vergi və sosial ayırmalar üçün kifayət qədər vəsait ödəyir. Bu dəyişiklikdən sonra isə əməkhaqqı üzrə gəlir vergisi və sosial ayırmalar üzrə hesablamalar vahid vergi yükü altında cəmləşdiriləcək».

Vahid vergi yükünün faiz məbləğinə gəlincə, vergi üzrə mütəxəssis Emin Səttarov bildirib ki, bu açıqlamanı sahibkarlıq mühiti üçün gözlənilməz, lakin çox sevindirici hal kimi qəbul etmək olar: «Mövcud vəziyyətdə işçilərin əməkhaqqından 14 faiz dərəcə ilə gəlir vergisi və 3,5 faiz dərəcə ilə sosial sığorta ayırmasının tutulması ilə yanaşı, işəgötürən tərəfindən əlavə olaraq 22+0,5 faiz dərəcəsi ilə sosial sığorta ayırması hesablanır və işəgötürənin vəsaiti hesabına maliyyələşir. Bu isə müəssisələr üçün böyük vergi yükü yaradır. Belə şəraitdə əməkhaqlarını şəffaf şəkildə bəyan etmək azgəlirli sahibkarlar üçün cəlbedici görünə bilməzdi». Onun sözlərinə görə, beynəlxalq təcrübədə əməkhaqqından vahid verginin tətbiqi təcrübəsi var və bu məbləğ sosial sığorta və vergi məbləğini əvəz edir. Rusiya və Gürcüstanda artıq belə təcrübə mövcuddur: «Adətən, vahid vergi dərəcəsi 20 faiz həddində olur. Yəni əməkhaqqından 20 faiz sosial vergi hesablanıb büdcəyə ödənilir və sahibkar əlavə olaraq sosial sığorta ödəməsi həyata keçirmir. Səsləndirilən təkliflərin qanunvericilikdə təsbit olunacağı halda, sahibkarların vergi yükü xeyli yüngülləşəcəkdir. Hələlik konkret rəqəmlər səsləndirilməsə də, nazirin açıqlamasına əsasən, işçilərin vergi yükünün dərəcəsi 14%-dən artıq olmayacaq».

Millət vəkili Tahir Mirkişili hesab edir ki, hazırda vergi sistemində atılan və planlaşdırılan addımlar iqtisadiyyata stimullaşdırıcı təsir göstərəcək: «Qeyri-rəsmi məşğulluq iqtisadi inkişafa mane olan amillərdəndir və buna qarşı inzibati yollarla mübarizə aparılır. Əməkhaqqına vergi yükünün azaldılması sahibkarların öz işçilərini rəsmi qeydiyyata almaları üçün mühüm bir stimul olacaq. Bu addım iqtisadiyyatda uçotun və hesabatlılığın səviyyəsini də xeyli artıracaq».

**FƏXRİYYƏ**

# Rəsmiləşdirilməmiş məşğulluq «kölgə iqtisadiyyatı»na yol açır

«Məşğulluq haqqında» Qanuna əlavə və dəyişikliklərin edilməsi nəzərdə tutulur. Milli Məclisin Aparatının Sosial qanunvericilik şöbəsinin Əmək qanunvericiliyi sektorunun müdiri Adil Vəliyevin sözlərinə görə, dəyişikliyin əsas məqsədi qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, bu sahədə mübarizə tədbirlərinin yeni qanunvericilik bazası çərçivəsində genişləndirilməsi ilə işsizliyin azaldılmasıdır. Qanunun üç maddədən ibarət olan yeni - V fəslində bildirilir ki, şəxsin məşğulluğuna dair məlumatlar məşğul şəxslərin reyestrinə daxil edilmədikdə qeyri-rəsmi məşğulluğun aşkar edilməsi və qarşısının alınması məqsədilə müvafiq icra hakimiyyəti orqanı ilə məşğulluğun leqallaşdırılması sahəsində nəzarəti həyata keçirən orqanlar tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq birgə nəzarət tədbirləri keçiriləcək.

**Qanunvericiliyin tələblərinə zidd olan qeyri-rəsmi məşğulluq vergi, sosial sığorta və digər məcburi ödənişlərin həyata keçirilməməsinə səbəb olur ki, bu da nəticədə dövlət büdcəsi üçün böyük itkilər yaradır, işçiləri cari və gələcək sosial təminat hüquqlarından məhrum edir.**

Yeni tələblərə görə, qeyri-rəsmi məşğulluğun aşkar edilməsi və qarşısının alınması məqsədilə əmək ehtiyatları ilə bağlı informasiya ehtiyatlarının, eləcə də məşğulluğun rəsmiləşdirilməsini müəyyən etməyə imkan verən digər informasiya sistemlərinin və ehtiyatlarının əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminə inteqrasiyası əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən «Qeyri-formal məşğulluğa nəzarət»in vahid elektron informasiya ehtiyatı yaradılır. Bununla yanaşı, qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair preventiv tədbirlər görülməsi və risk qiymətləndirilməsi sisteminin müvafiq icra hakimiyyəti orqanları tərəfindən tətbiqi «Qeyri-formal məşğulluğa nəzarət»in vahid elektron informasiya ehtiyatı vasitəsilə həyata keçiriləcək.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev bildirib ki, rəsmiləşdirilməmiş məşğulluqla mübarizədə beynəlxalq təcrübənin öyrənilməsi və bu istiqamətdə Beynəlxalq Əmək Təşkilatı ilə birgə icra olunan «2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı» təşkilatın ölkəmizdə apardığı vacib işlərdəndir. Bütün dünyada rəsmiləşdirilməmiş məşğulluq «kölgə iqtisadiyyatı»nın tərkib hissəsi hesab olunur. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər planı»na uyğun olaraq normativ hüquqi aktların, inzibatçılığın təkmilləşdirilməsi, nəzarət tədbirlərinin gücləndirilməsi, monitorinq və qiymətləndirmə sisteminin qurulması, məlumatlandırma və təbliğat işlərinin təşkili ilə bağlı 36 tədbirin həyata keçirilməsi nəzərdə tutulub və həmin tədbirlərin hər biri üzrə sosial tərəfdaşlarla fəal əməkdaşlıq müstəvisində müvafiq işlər aparılır, həmçinin təbliğat-maarifləndirmə işlərinə xüsusi əhəmiyyət verilir.

**Rəşad SADIQOV**

# Kassa çeki tələb etməklə vətəndaş öz hüquqlarını qoruyur

**Vergi sistemində aparılan islahatların əsas hədəfləri vergi uçotunun bərpası və şəffaflaşdırılması, vergidən yayınmaya səbəb olan halların qarşısının alınması üçün yeni səmərəli nəzarət mexanizmlərinin tətbiqi, eləcə də vergidən yayınma hallarına qarşı mübarizənin sərtləşdirilməsidir.**

Vergi Məcəlləsində nağd pul hesablaşmalarının aparıldığı təsərrüfat subyektləri və obyektlərində vergi ödəyiciləri tərəfindən nəzarət-kassa aparatlarının quraşdırılması vəzifələri təsbit olunub. Vergi Məcəlləsinin 16.1.8-ci maddəsinə əsasən, bəzi fəaliyyət növləri istisna olmaqla, pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti üzrə nağd pul hesablaşmaları nəzarət-kassa aparatları (NKA) vasitəsilə aparılmalıdır. Nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz və digər ciddi hesabat blanklarını təqdim etmək və həmin sənədlərdə qanunvericiliklə müəyyən olunmuş məlumatların əks etdirilməsini təmin etmək NKA istehlakçısının vəzifələrinə aiddir. Hazırda NKA-ların qeydiyyatı, quraşdırılması, istifadəsi üçün lazım olan bütün infrastruktur mövcud olsa da, bəzi təsərrüfat subyektlərində həmin cihazdan istifadədə ciddi problemlər müşahidə olunur.

### Çek tələb etməməklə vətəndaş öz istehlakçı hüquqlarından məhrum olur

İqtisadçı ekspert Qalib Toğrul bildirib ki, əksər ticarət və ictimai iaşə obyektləri tərəfindən verilən çeklərdə vergi ödəyicisinin adı, VÖEN-i göstərilsə də, tələb edilən bütün məlumatlar olmur. Böyük supermarketlərdə alıcılara təqdim edilən malların adı, miqdarı və yekun məbləği əks olunmuş sənəd kassa çeki deyil, qaimədir və bu sənəd kassa çekini əvəz edə bilməz. Kassa çeklərində müvafiq məlumatların olmasını nəzarət-kassa aparatını quraşdıran firma təmin edə bilər. Kassa çeklərində yekun məbləğlə yanaşı, ƏDV-nin və ya sadələşdirilmiş verginin məbləğinin göstərilməsi tələbi qoyulub.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, istehlakçıların ərizələrində göstərilən qanun pozuntularının böyük bir qismi müxtəlif ticarət və iaşə obyektlərində kassa çeklərinin verilməməsi ilə bağlıdır. İstehlakçıların ərizələri araşdırıldıqda əksər hallarda onların haqlı olduğu aşkara çıxır. Paytaxtın və bölgələrin bir çox ticarət, ictimai-iaşə, xidmət obyektlərində sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər tərəfindən kassa aparatlarından istifadə edilməməsi, vurulmuş kassa çeklərinin alıcılara verilməməsi və nəticə etibarilə ümumi dövriyyənin gizlədilməsi halları narahatlıq doğurur. Adi müşahidələr göstərir ki, hər 5 alıcıdan 3-ü çek tələb etmir. Kompüter və telefon avadanlıqları satışı ilə məşğul olan kiçik obyektlərdə, inşaat materialları mağazalarında, gül dükanlarında, geyim mağazalarında və digər obyektlərdə NKA aparatları lazımsız əşya kimi kənarda qalıb.

E.Hüseynovun sözlərinə görə, market və dükanların bir çoxunda alış zamanı xəzinədar tərəfindən kompüterdən çıxarılan qəbzdə (barkod) malların qiyməti və siyahısı, hesablanmış ƏDV əks etdirilir. Kassa çekinin verilməməsi nəticəsində həm istehlakçıların hüquqları pozulur, həm də vergidən yayınma halları baş verir.

«İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanuna əsasən, vətəndaşlar hər hansı mübahisə halları yarandıqda öz hüquqlarını məhkəmə səviyyəsində müdafiə etmək üçün istehlakçının əlində ciddi sənəd kimi kassa mədaxil orderi olmalıdır. Həmin sənəd, sadəcə, satış qəbzi olduqda istehlakçının hüquqlarının qorunmasını təmin etmək çox çətindir.

E.Hüseynov qeyd edib ki, istehlakçıların satış mağazalarında və marketlərdə aldadılması hallarından biri də vitrindəki qiymətlərlə kassada qəbzə vurulan məbləğ arasında fərqin yaranmasıdır.

### Kassa çekinin verilməməsi məsuliyyət yaradır

Vergi Məcəlləsinin 58.7-ci maddəsinə əsasən, nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, yəni NKA və ya ciddi hesabat blankları tətbiq edilmədən, vergi orqanlarında qeydiyyatdan keçirilməyən və ya texniki tələblərə cavab verməyən cihazlardan istifadə etməklə əhali ilə pul hesablaşmalarının aparılmasına, alıcıya təqdim olunmalı çekin verilməməsinə və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə görə vergi ödəyicisinə:

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat, vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə münasibətdə 2000 manat məbləğində;
- təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə 800 manat, vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə münasibətdə 4000 manat məbləğində;
- təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə 1200 manat, vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə münasibətdə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

### Çek tələb etməkdə hamı fəal olmalıdır

Kassa çekinin tələb edilməməsi verginin dövlət büdcəsindən gizlədilməsinə səbəb olur. Bu isə hər birimizin gələcək həyatına təsir edir: həmin vəsaitlə insanların sosial həyatını daha da yaxşılaşdırmaq olar. Ona görə də dövriyyəyə cəlb edilməli vergilərin ödənilməsi aktual məsələ kimi gündəmdən düşməməlidir.

Vergi orqanı müasir NKA-lar vasitəsilə (elektron məsafədən ötürmə qurğularının və ya elektron nəzarət lentinin köməyilə) vergi ödəyicisinin apardığı əməliyyatlarla bağlı bütün zəruri məlumatları əldə edə bilir. Ona görə də mağaza sahibləri kassa aparatlarından istifadə etməməklə vergini gizlədə biləcəyini, dövlət orqanlarını aldadacağını ağlına belə gətirməməlidir. Çünki NKA vasitəsilə aparılan nağd pul hesablaşmaları barədə bütün məlumatları ortaya çıxarmaqla, ödəyicinin hansı qanunsuzluqlara yol verdiyini sübut etmək çətin deyil. NKA-ya mədaxil olunmuş dövriyyə barədə «Z» hesabatının surəti kifayət edir ki, ödəyicinin hansı məbləğdə vergidən yayındığı müəyyən edilsin.

Kassa çekinin tələb edilməsində vətəndaşlar da fəal olmalıdırlar. Çünki əksər hallarda mağaza sahibləri çek tələb etmədiklərinə və yaxud təqdim olunan çek götürülmədiyinə görə bundan sui-istifadə edirlər. Vətəndaşların çek tələb etmək vərdişinin olmaması qarşı tərəfi daha da arxayınlaşdırır.

Vergilər Nazirliyi davamlı olaraq təşviqedici və izahedici məlumatlarla sahibkarları qanunların tələblərinə və nağd hesablaşmaların aparılması qaydalarına əməl etməyə, nəzarət-kassa aparatlarından düzgün istifadəyə, vurulmuş çekləri mütləq qaydada alıcılara verməyə dəvət edir.

**Elbrus CƏFƏRLİ**

#### Kassa çekinin digər qəbzlərdən fərqi

Vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq, NKA çeklərində aşağıdakı məlumatlar olmalıdır:

- vergi ödəyicisinin adı;
- VÖEN-i;
- qəbzin vurulmasının tarixi və saatı;
- obyektin adı və yerləşdiyi ünvan;
- malın və ya xidmətin (işin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ (o cümlədən ƏDV-nin və ya sadələşdirilmiş verginin məbləği);
- gün ərzində vurulmuş qəbzlərin sayı və nömrəsi;
- nəzarət-kassa aparatının markası və zavod nömrəsi;
- nəzarət-kassa aparatının fiskal rejiminin nişanı (əlaməti).



Alıcılara təqdim edilən malların adı, miqdarı və yekun məbləği əks olunmuş sənəd kassa çeki deyil, qaimədir və bu sənəd kassa çekini əvəz edə bilməz

# Qanunu pozanlara qarşı ciddi tədbirlər görülür

Vergilər Nazirliyi ölkə ərazisində alkoqollu içkilərin və tütün məmulatlarının aksiz markası olmadan satışının həyata keçirilməsinin qarşısının alınması məqsədilə nəzarət tədbirlərini davam etdirir.

Ötən həftə ərzində Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən Bakı və Sumqayıt şəhərləri və Abşeron rayonu ərazisində yerləşən 27 təsərrüfat subyektində aparılmış vergi nəzarəti tədbirləri zamanı 4605 qutu aksiz markasız tütün məmulatları və 163 ədəd aksiz markası olmayan alkoqollu içkilər aşkar edilərək götürülüb. Müəyyən edilmiş faktlarla bağlı departamentdə cinayət işi başlanıb.

Bununla yanaşı, aparılan maarifləndirmə və təbliğat işlərinin nəticəsi olaraq, bir sıra vergi ödəyiciləri tərəfindən satış üçün əldə edilmiş aksizsiz tütün məmulatlarının könüllü təhvil verilməsinə başlanılıb. Abşeron rayonu Mehdiabad qəsəbəsində fəaliyyət göstərən vergi ödəyiciləri 12.086 qutu aksizsiz tütün məmulatını könüllü olaraq dövlət vergi orqanı əməkdaşlarına təhvil veriblər.

Vergilər Nazirliyi bir daha xatırladır ki, aksiz markası olmayan və ya saxta aksiz markası ilə markalanmış məhsulların satışı qanunvericiliklə qadağandır və vergi orqanları belə halların qarşısının alınması və təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması istiqamətində tədbirləri davam etdirəcəkdir.



## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Bu ilin ilk dörd ayında Azərbaycanda qeyri-neft ixracı **20%**-dək, qeyri-neft ÜDM-i isə **3%**-ə yaxın artıb.
- «Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu»nun xətti ilə verilmiş **22 min 638** ipoteka krediti üzrə məbləğ **1 milyard 40 milyon 666 min 627** manatdan çoxdur.
- Yanvar-aprel aylarında Azərbaycan və Avropa İttifaqı arasında ticarət dövriyyəsinin həcmi **15%** artıb.
- Heydər Əliyev adına Neft Emalı Zavodunun modernizasiya və yenidənqurma layihəsinin dəyəri təxminən **1,6-1,7 milyard** dollar civarında müəyyənləşdirilib.
- Cari ilin ilk dörd ayında Bakıda əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,6% artaraq **1 milyard 642,8 milyon** manata çatıb.
- Son iki il ərzində Azərbaycan sahibkarlarına hökumət tərəfindən 271 layihə üzrə dəyəri **2 milyard** manatdan çox olan investisiya təşviqi sənədi verilib.

# İqtisadiyyatın yeni sahələri elmi-texnoloji parklar hesabına formalaşır

**Texnoparklar – innovasiya məhsulunun və yüksək texnologiyaların işlənilməsi və ya təkmilləşdirilməsi məqsədilə elmi tədqiqatlar və təcrübə-konstruktor işlərinin nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi üçün zəruri infrastrukturu, maddi-texniki bazası, ərazisi və idarəetmə strukturları olan xüsusiləşdirilmiş qurumdur.**

Müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiyaların genişləndirilməsi, innovasiya şirkətlərinin formalaşdırılması, yüksək ixtisaslı mütəxəssislər üçün yeni iş yerlərinin yaradılması, təhsil müəssisələri, elmi tədqiqat institutları və sənaye arasında qarşılıqlı əlaqələrin təkmilləşdirilməsində texnoparkların xüsusi yeri var. Texnoparkların ixtisaslaşdığı fəaliyyət sahələri İKT və telekommunikasiya, biotexnologiya, ətraf mühit və ekologiya, elektronika, proqram mühəndisliyi, kompüter elmləri və avadanlığı, biznes və sənaye xidmətləri, mikrokompüter və nanotexnologiya kimi sferaları əhatə edir.

Azərbaycan iqtisadiyyatının yüksək texnologiyalar əsaslı iqtisadiyyat sahələri vasitəsilə diversifikasiyalaşdırılması prosesləri günü-gündən sürətlənir. Sumqayıtda elektrotexnika məmulatları üzrə texnologiyalar parkı ən müasir və yüksək texnologiyalar əsaslı istehsalatlar şəbəkəsi kimi diqqəti cəlb edir. Ölkəmizdə texnoparkların digər modellərinin də yaradılmasına ciddi maraq göstərilir və hazırda kimya xammallarının emalı istiqamətində rezidentlərin cəlb edilməsi prosesi intensivləşir. Sumqayıt Kimya Sənaye Parkının fəaliyyətinin genişlənməsi ilə yüksək rəqabətqabiliyyətli kimya məhsullarının istehsalının çeşidi və ixrac potensialı əsaslı şəkildə artır. Balaxanı və Mingəçevir sənaye parklarının fəaliyyəti də ölkə iqtisadiyyatının davamlı inkişafının və rəqabət qabiliyyətinin artırılmasında, elmi-texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiyalar sahələrinin genişləndirilməsində, yeni texnologiyaların işlənilməsi üzrə müasir komplekslərin yaradılmasında, dünya standartlarına cavab verən ixracyönümlü məhsulların çeşidinin artırılmasında əhəmiyyətli rol oynayır.

Azərbaycan Multimedia Mərkəzinin rəhbəri Osman Gündüzün sözlərinə görə, texnoloji parkların yaradılmasında məqsəd biliklərin və ixtiraların texnologiyalara, bu texnologiyaların isə kommersiya məhsuluna çevrilməsi, tədqiqatlara yönəldilmiş milli xərclərin səmərəliliyinin yüksəldilməsidir. Eyni zamanda, yüksək texnologiyalara əsaslanaraq inkişaf etdirilən sənaye sahələrinin gücləndirilməsi, bölgələrdə sənayenin inkişafının dəstəklənməsi, innovativ fəaliyyətlərin həyata keçirilməsi əsas hədəflərdəndir: «Dünya iqtisadiyyatında texnoparklar innovasiyalı iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi hesab edilir. Milli iqtisadiyyatların yeni sahələrinin formalaşmasında və rəqabətqabiliyyətli məhsul ixracında texnoparkların müstəsna rolu var. ABŞ, Yaponiya, Çin və digər inkişaf etmiş ölkələrin İKT sahəsində qabaqcıl mövqeyə malik olmaları məhz texnoparkların səmərəli fəaliyyətinin nəticəsidir». Ekspertin bildirdiyinə görə, müasir dövrdə informasiya cəmiyyətinin biliklərə əsaslanan iqtisadiyyatın qurulmasında texnoloji biliklərin mərkəzinə çevrilən universitetlər mühüm rol oynadığından, ali məktəblərdə də texnoparkların yaradılması geniş yayılıb: «Bu cür texnoparklar bir və ya bir neçə universitet, həmçinin elmi tədqiqat mərkəzləri ilə birbaşa və ya ortaq fəaliyyətləri ilə əlaqədar olub, tərkibində elmi nəticələrə və yüksək texnologiyalara əsaslanan şirkətlərin yaranmasına və onların inkişafına təşəbbüs göstərmək məqsədilə qurulur. Universitet texnoparkda fəaliyyət göstərən şirkətlərə innovativ elmi nəticələrin transfer edilməsi və işin idarə olunması sahələrində dəstək verir. Beləliklə, texnoparklar yeni ideyaların formalaşması, tətbiq olunması və inkişaf etdirilməsində innovativ fəaliyyətləri təmin edən məkan rolunu oynayır».

> Yüksək texnologiyalara əsaslanaraq inkişaf etdirilən sənaye sahələrinin gücləndirilməsi, bölgələrdə sənayenin inkişafının dəstəklənməsi, innovativ fəaliyyətlərin həyata keçirilməsi əsas hədəflərdəndir

**Fəxriyyə İKRAMQIZI**


## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə**, ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Vergi ödəyicisinin sualı var...



**Samirə Musayeva**
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Dövlət satınalma müqaviləsi üzrə ödəniş

***Müəssisə tərəfindən dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitdən ödənişlər nağd qaydada həyata keçirilə bilərmi?***

Azərbaycan Respublikasının «Nağdsız hesablaşmalar haqqında» Qanununun 3.4.7-ci maddəsinə əsasən, müəssisə tərəfindən dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi) yalnız nağdsız qaydada həyata keçirilməlidir.

Vergi Məcəlləsinin 58.7-1.1-ci maddəsinə uyğun olaraq, adıçəkilən Qanunun 3.4.7-ci maddələrinin tələblərinin pozulmasına görə, ödənişi həyata keçirən vergi ödəyicisinə aparılan əməliyyatın ümumi məbləğinin təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

***Qeyd olunanlara əsasən:***

Müəssisə tərəfindən dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin xərclənməsi yalnız nağdsız qaydada həyata keçirilir.

# Sahibkarlığın davamlı inkişafı üçün əlavə yollar axtarılır

## Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi Azərbaycanın şəhər və rayonlarında biznes evləri yaratmağı planlaşdırır

Agentliyin icraçı direktoru Orxan Məmmədov bildirib ki, biznes evləri sahibkarların hüquqi mənafelərinin qorunması, güzəştli maliyyə mənbələrinə asan və rahat çıxışı, biznes fəaliyyətlərinin genişləndirilməsi üçün qabaqcıl modellərin tətbiqi və digər məsələlərin həllində operativliyi və koordinasiyanı təmin edən xidmət strukturu rolunu oynayacaq. Qurum biznes inkubatorlarının fəaliyyətinin təşkili, sahibkarların müraciətlərinə baxılması, iş adamlarına «bir pəncərə» prinsipi əsasında təlim, məsləhət, informasiya xidmətlərinin göstərilməsinə dəstək verəcək. Yeni yaradılacaq biznes evləri sahibkarların rəqabət qabiliyyətli məhsul ixracında xüsusi rol oynayacaq. Onların fəaliyyəti «ASAN xidmət» mərkəzləri, belə mərkəzlər olmayan regionlarda isə İqtisadiyyat Nazirliyinin regional bölmələri vasitəsilə həyata keçiriləcək.

İqtisadçı Zaur Əliyevin sözlərinə görə, kiçik və orta sahibkarlar (KOS) üçün biznes evlərinin yaradılması bu sahədə idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılması, institusional dəstək mexanizmlərinin daha da təkmilləşdirilməsi, sahibkarlıq xidmətlərinin vahid məkandan idarə olunması baxımından mühüm əhəmiyyət kəsb edir: «Bəzi KOS subyektləri qanunvericiliyin tələblərindən, biznes risklərindən, mövcud sektordakı vəziyyətdən xəbərsiz şəkildə fəaliyyətə başlayırlar ki, bu da onların işində bir sıra problemlərə səbəb olur. Sahibkarların iqtisadi islahatlar və tətbiq olunan yeni mexanizmlər barədə məlumatlarının zəif olması onların biznes məsləhət xidmətləri ilə təmin edilməsi zərurətini aktuallaşdırır. Hazırda müxtəlif dövlət orqanları öz səlahiyyətləri çərçivəsində KOS subyektlərinə müxtəlif məsləhət xidməti göstərsə də, bu sahədə problemlər mövcuddur, bu baxımdan sahibkarların vahid mərkəzdən idarə olunan xidmət kanallarından istifadə etməsi daha səmərəli nəticələrin əldə olunmasına şərait yaradacaq».

KOS evləri kiçik və orta biznesin inkişafında və regionlarda yeni iş yerlərinin yaradılmasında da mühüm rol oynaya bilər. Onların fəaliyyətə başlaması sahibkarlara göstərilən dövlət xidmətlərinin elektronlaşdırılmasına, bütün kommunikasiya və xidmətlərin əlaqələndirilməsinə, nəticədə sahibkar məmnunluğunu təmin etməklə operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsiplərinə səbəb olacaq.

Agentliyin icraçı direktoru bu sahədə stimullaşdırıcı addımların atılacağını bildirərək qeyd edib ki, KOS-un inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabət qabiliyyətinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın sürətlənməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. KOS-un inkişafı ilə əlaqədar Strateji Yol Xəritəsində müəyyənləşdirilən məqsədlərə nail olmaq və müvafiq imkanlardan maksimum istifadə etmək istiqamətində hədəflər müəyyənləşdirilib:

«Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri»ndə vergi orqanları qarşısında səmərəli vergi sisteminin təşviqinin davam etdirilməsi, biznes mühitinin və tənzimləyici bazanın təkmilləşdirilməsi, KOS subyektlərinin fəaliyyətində lisenziyalaşdırma mexanizmlərinin təkmilləşdirilməsi, yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması nəzərdə tutulub. Bu kateqoriyadan olan vergi ödəyicilərinə münasibətdə diferensial yanaşma genişləndiriləcək. Kiçik və orta biznes üçün fiskal və inzibatçılıq yükünün aşağı salınması nəzərdə tutulur. Bu sahədə stimullaşdırıcı vergi islahatları isə 2018-2020-ci illərdə davam etdiriləcək.

**KOS üzrə operativ vergi nəzarəti tədbirlərinin, səyyar və kameral vergi yoxlamalarının yalnız risk meyarları əsasında aparılması məqsədilə müvafiq prinsip və mexanizmlər hazırlanıb**

Vergilər Nazirliyi tərəfindən KOS üzrə operativ vergi nəzarəti tədbirlərinin, səyyar və kameral vergi yoxlamalarının yalnız risk meyarları əsasında aparılması məqsədilə müvafiq prinsip və mexanizmlər hazırlanıb, bəyannamələrin kameral vergi yoxlamalarının, səyyar vergi yoxlamalarının aparılması, dövlət vergi orqanları tərəfindən Vergi Məcəlləsinin 50-ci maddəsinə uyğun olaraq vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi qaydalarına edilmiş zəruri dəyişikliklər təsdiq olunub.

**ELBRUS**

# Nağdsız cəmiyyətə keçid maliyyə sektorunda şəffaflığı təmin edir

**Bu gün Azərbaycanda reallaşdırılan sosial-iqtisadi, siyasi strategiyanın əsas prinsiplərindən biri şəffaflıqdır. Bu, vətəndaş-məmur münasibətlərində mənfi halların, korrupsiya elementlərinin yaranmasının qarşısını alan başlıca amildir. İndiyə kimi şəffaflığın təmin edilməsi, korrupsiya hüquqpozmalarına qarşı səmərəli mübarizənin aparılması məqsədilə çoxsaylı normativ hüquqi aktlar qəbul edilib, bir sıra mühüm institusional tədbirlər həyata keçirilib.**

Məlumdur ki, pul hesablaşmalarının, dövlət qurumlarına məcburi ödənişlərin nağd qaydada aparılması şəffaflığın təmin edilməsində, korrupsiya hüquqpozmalarına qarşı səmərəli mübarizənin aparılmasında maneələr törədir, qeyri-leqal gəlirlərin gizlədilməsinə, vergidən yayınmalara şərait yaradır. Respublikamızda nağd hesablaşmaların məhdudlaşdırılması və alğı-satqı əməliyyatlarının əsasən nağdsız ödəmələr vasitəsilə aparılması sisteminə keçilməsi istiqamətində işlər uzun müddətdir həyata keçirilir. Dövlət başçısının sərəncamı ilə 2004-cü ilin dekabrında «Azərbaycan Respublikasında Milli Ödəniş Sisteminin inkişafı üzrə 2005-2007-ci illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi nağdsız hesablaşmaların tətbiqi prosesini gücləndirib. Lakin yerli və beynəlxalq monitorinqlərin nəticələri göstərir ki, ötən dövr ərzində nağdsız cəmiyyətin formalaşdırılması istiqamətində əldə olunan nəticələr yetərli deyil. Dövlət başçısı bu problemin mövcudluğunu dəfələrlə qabardıb və Nazirlər Kabinetinin hesabat yığıncaqlarında dövlət qurumlarının qarşısına konkret vəzifələr qoyub: Sitat (Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası): «Baxmayaraq ki, mən bu məsələ barədə dəfələrlə fikirlərimi, iradlarımı bildirmişəm və müəyyən işlər görülübdür, ancaq hələ ki, lazımi səviyyədə deyildir. Azərbaycanda nağdsız ödəmələr çox aşağı səviyyədədir. Bu, böyük problemdir. Bu, bir tərəfdən bu sistemdə şəffaflığın tam təmin edilməsi üçün bizə imkan vermir, eyni zamanda, xoşagəlməz halların mövcudluğunu da şərtləndirir... Hesab edirəm ki, biz bu il və bundan sonrakı illərdə də bu sahəyə çox ciddi fikir verməliyik. Burada, necə deyərlər, heç bir yeni üsul icad etməməliyik, inkişaf etmiş ölkələrin təcrübələrinə baxmaq kifayətdir».

Nağdsız hesablaşmaların genişləndirilməsi prosesi son 2 ildə xüsusilə intensiv xarakter daşıyıb. 2017-ci ildən «Nağdsız hesablaşmalar haqqında» Qanuna edilmiş dəyişikliklər nəticəsində irəliləyişlər olsa da, bu, daha çox dövlət rüsumları və ödəmələr sistemini əhatə edib, lakin nağdsız hesablaşmaların kütləvi xarakter daşıdığı bir çox sahələrdə əhəmiyyətli dəyişikliyə nail olunmayıb.

Bununla belə, nağdsız ödəmələrin genişləndirilməsini hədəfə alan layihələrin icrası davam edir. 2018-ci ildə 3 yeni layihənin başlanması nəzərdə tutulur. Bunlar «Nağdsız Azərbaycan», «3D bank sektorunda blokçeyn texnologiyalarına keçid» və «Ani ödənişlər» proqramlarıdır. Nağdsız ödəmələrin genişləndirilməsini hədəfləyən hər üç layihənin icrasında Mərkəzi Bank (MB) bir sıra qurumlarla, xüsusilə də Vergilər Nazirliyi ilə fəal əməkdaşlıq aparır. MB-nin İdarə Heyəti sədrinin birinci müavini Alim Quliyev bildirib ki, hökumət nağdsız hesablaşmalara keçid üzrə yeni proqramı reallaşdırmağı nəzərdə tutur. Bu məqsədlə qlobal müstəvidə sürətlə inkişaf edən texnoloji proseslər izlənir, maliyyə-bank sektorunun daha da müasirləşməsi istiqamətində imkanlar diqqətdə saxlanır və yaxından araşdırılır: «Ortamüddətli dövrdə üç aparıcı layihənin fəlsəfəsi məhz bu texnologiyalara əsaslanıb. İlk layihə «Nağdsız Azərbaycan» layihəsidir. Bütövlükdə ölkənin nağdsız cəmiyyətə transformasiyasını və innovativ ödəniş sisteminin tətbiqini özündə əks etdirən layihənin icrası beynəlxalq qurumların iştirakı ilə hazırlanıb. Proqram Prezident Administrasiyasında müzakirə edilir və yaxın vaxtlarda təsdiqlənməsi gözlənilir».



**İqtisadiyyatın yüksək səviyyədə nağdlaşması bir sıra neqativ nəticələr doğurur: makroiqtisadi idarəetmə çətinləşir, iqtisadiyyat investisiya resurslarından məhrum olur, maliyyə-vergi intizamı pozulur, şəffaflıq aşağı düşür, dövlət büdcəsinə vergi-gömrük gəlirləri və bank sisteminin resurs bazası azalır, faiz dərəcələri yüksəlir, pul çapı ilə bağlı əlavə xərclər meydana çıxır**

A.Quliyev qeyd edib ki, nağdsız ödənişlərin stimullaşdırılmasını nəzərdə tutan ikinci layihə rəqəmsal identifikasiya sisteminin blokçeyn platformasında yaradılması ilə bağlıdır. Hazırda qalib şirkətin müəyyənləşdirilməsi üçün tender prosesləri gedir. Azərbaycanın bank sektorunda müştəri məmnunluğunun artırılması məqsədi daşıyan layihə ilkin məhsul kimi, ilin sonunadək bank ictimaiyyətinə təqdim ediləcək. Üçüncü layihə isə rəqəmsallaşmanı genişləndirmək üçün ani ödəniş sisteminin yaradılmasıdır. Bu sistemin tətbiqi ilə bütün iqtisadi sistemlər arasında beş-on saniyə ərzində ödənişlərin tamamlanması təmin olunacaq».

Mütəxəssislər hesab edirlər ki, iqtisadiyyatın yüksək səviyyədə nağdlaşması bir sıra neqativ nəticələr doğurur: makroiqtisadi idarəetmə çətinləşir, iqtisadiyyat investisiya resurslarından məhrum olur, maliyyə-vergi intizamı pozulur, şəffaflıq aşağı düşür, dövlət büdcəsinə vergi-gömrük gəlirləri və bank sisteminin resurs bazası azalır, faiz dərəcələri yüksəlir, pul çapı ilə bağlı əlavə xərclər meydana çıxır və s. Bu baxımdan, maliyyə bazarının inkişafı, iqtisadiyyata investisiya qoyuluşu imkanlarının genişləndirilməsi, vahid elektron ödəniş məkanının formalaşdırılması və ölkədə nağd pul dövriyyəsinin məhdudlaşdırılması ilə əlaqədar müasir elektron ödəniş xidmətlərinin təkmilləşdirilməsi, nağdsız ödənişlərin stimullaşdırılması ilə bağlı tədbirlərin davamlı olaraq həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu tədbirlər təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsi, korporativ sektorda şəffaflığın artırılması, o cümlədən vergidən yayınma hallarının aradan qaldırılmasına xidmət edir.

«Nağdsız Azərbaycan»ın ekspertləri hesab edirlər ki, ölkədə nağdsız ödəmələrin inkişafı üçün böyük potensial olsa da, hazırda nağd ödənişlərin payı 90 faizdən çoxdur. Bunun əsas səbəbləri uçotdan yayınan (qeyri-rəsmi və ya «kölgə») iqtisadiyyatın, qeyri-formal məşğulluğun, qeyri-mütəşəkkil və pərakəndə ticarətin miqyasının yüksək olması, maliyyə savadlılığının aşağı səviyyəsi, infrastruktur və texniki amillər (ödəniş sistemlərinin çeşidinin az, xidmət tariflərinin isə yüksək olması, POS-terminallarla bağlı əməliyyat xərclərinin çoxluğu, regionlarda rabitə infrastrukturunun zəifliyi), qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac olması (bank olmayan ödəniş xidməti provayderlərinin fəaliyyətinin tənzimlənməməsi, elektron pulun normativ hüquqi bazasının olmaması, kart sahiblərinin hüquqlarının yetərincə müdafiə edilməməsi) və s. kimi amillərlə bağlıdır.

Mütəxəssislərin fikrincə, nağd ödənişlərin dominant olduğu əsas sahələr aşağıdakılardır:

- İctimai iaşə və turizm obyektləri - 600-dən çox şadlıq evi, 19 minə yaxın restoran-kafe, 580 hotel, yüzlərlə yanacaqdoldurma məntəqəsi, avtoservis, idman-sağlamlıq mərkəzləri, gözəllik salonları və bir sıra digər xidmət sektorları.
- Ticarət obyektləri - bazarlar, ticarət mərkəzləri, iri super-hipermarketlər, məişət texnikaları, ev əşyaları, cehizlik mallar, mebel salonları, brend butiklər, topdan və pərakəndə satış mərkəzləri.
- Elm-təhsil və səhiyyə müəssisələri - bağçalar, məktəbəqədər hazırlıq, xarici dil və ümumi hazırlıq kursları, repetitorluq, xəstəxanalar, klinikalar, apteklər.
- İctimai nəqliyyat - «Bakı kart»ın işləmədiyi 2400 sərnişin avtobusu, 20-yə yaxın özəl taksi xidməti, dəmir yolu.
- Torpaq və daşınmaz əmlak bazarı, icarəsi və kirayəsi.
- Fiziki şəxslərin «çelnok» ticarəti - əsasən idxal əməliyyatları.
- Avtomobil bazarı - avtomobil idxalı, avtosalonlar, avtobazarlar.
- Qeyri-leqal əməkhaqqı, muzdla işləyən yerli və əcnəbi işçilərə ödənilən əməkhaqqı.
- Mərc oyunları, şou-biznes, əyləncə sektoru.
- Valyutadəyişmə məntəqələri və s.

Sadalanan bu uzun siyahıdan göründüyü kimi, ölkə iqtisadiyyatının böyük bir sahəsində əsasən nağd ödənişlər həyata keçirilir. Minlərlə hüquqi və fiziki şəxsin uçotdan yayındırdığı pul vəsaitlərinin, ödənişlərin nağdsızlaşdırılması və leqallaşması nəticəsində maliyyə-vergi mühasibatlıq sənədlərində şəffaflıq yaranar və dövlət büdcəsinə vergi daxilolmaları xeyli artar.

Nağdsız ödənişlərin cəmiyyətdə geniş yayılmasının vacib olduğunu bu gün hər kəs etiraf edir. Bəs bu sahədə hansı həllivacib problemlər mövcuddur? Burada kompleks yanaşma məqsədəuyğundur. İlk növbədə, infrastruktur imkanları genişləndirilməli, iqtisadi stimullaşdırma və maarifləndirmə tədbirləri həyata keçirilməli, lazım gələrsə, inzibati tədbirlər, cərimələr artırılmalıdır.

Dünya Bankının sifarişi ilə Azərbaycanda aparılmış sorğu əhalinin maliyyə savadlılığı səviyyəsinin aşağı olduğunu göstərir. Araşdırmalara görə, ölkə vətəndaşlarının böyük əksəriyyəti nağdsız ödənişlər barədə məlumatsızdır və bu xidmətlərdən, demək olar ki, istifadə etmir:

- adi riyazi maliyyə savadını qiymətləndirmək üçün verilən suallara respondentlərin yalnız 55%-i düzgün, 25%-i yanlış cavab verib, 20%-i isə təxmini rəqəm belə deyə bilməyiblər;
- rəyi soruşulanların 95%-dən çoxu elə bilir ki, kartdan istifadənin məqsədi yalnız bankomat və ya POS-terminaldan nağd pulun çıxarılmasından ibarətdir;
- vətəndaşların 55%-dən çoxu ayda cəmi bir-iki dəfə POS-terminal və ya internet vasitəsilə alış-veriş edir.

İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov hesab edir ki, nağdsız hesablaşmaların həcminin artırılması, POS-terminallardan istifadə səviyyəsinin yüksəldilməsi üçün həm təşviqedici, həm də stimullaşdırıcı tədbirlər həyata keçirilməli, xüsusən də POS-terminaldan imtina olunmasına görə qanunvericilikdə müəyyən tələblər qoyulmalıdır: «Vergi Məcəlləsində POS-terminalların quraşdırılmamasına görə hansısa bir cərimə və ya cəza nəzərdə tutulmayıb. Bu bir reallıqdır ki, sahibkarların nağd pula daha çox üstünlük verməsi vergidən yayınmaq məqsədi güdür. POS-terminallar isə nəticə etibarilə sahibkarların fəaliyyətinin şəffaflaşmasına və onların vergiyə cəlb edilməsinə zəmin yaradır».

Azərbaycanda nağdsız ödənişlərin genişlənməsinin qarşısını alan səbəblərdən biri də xidmət tariflərinin yüksək olmasıdır. Nağdsız ödəniş əməliyyatı aparılan zaman sahibkarlar obyekti POS-terminallarla təmin edən banka 0,5-1% aralığında xidmət haqqı ödəməli olurlar. Belə olan halda, heç bir sahibkar maraqlı olmayacaq ki, nağdsız şəkildə satış həyata keçirsin. Bunun qarşısını almaq üçün müəyyən güzəştlər tətbiq edilməlidir ki, nağd dövriyyə ilə müqayisədə nağdsız ödənişin qəbul edilməsi sahibkar üçün maraqlı olsun.

Digər məsələ isə konvertasiya haqlarının artırılması ilə bağlıdır. Nağdsız ödənişləri stimullaşdırmaq üçün ölkədə prosessinq şirkətləri arasında tarif vahid olmalıdır. Bu ona gətirib çıxarmalıdır ki, bir prosessinq şirkətinə daxil olan bankın kredit, yaxud debit (maaş, yaxud pensiya kartı) ilə başqa prosessinq şirkətinə daxil olan bankın bankomatından, yaxud POS-terminalından əməliyyat aparanda əlavə xərc çıxılmasın.

**ELNURƏ**

# Dövlətin sabahı, millətin gələcəyi...

**May ayının 29-da Vergilər Nazirliyinin təşəbbüsü ilə valideyn himayəsindən məhrum, qayğıya ehtiyacı olan uşaqlar və eləcə də təhsildə fərqlənən məktəblilər üçün 1 İyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə xeyriyyə tədbiri keçirilib.**

Tədbirdən öncə vergilər nazirinin müşaviri Elçin Məmmədov uşaqları əlamətdar gün münasibətilə təbrik edib, onların cəmiyyətə fəal inteqrasiyası üçün dövlət tərəfindən həyata keçirilən işlər barədə danışıb: «Hər bir xalqın, dövlətin ən böyük və qiymətli sərvəti uşaqlardır. Onları sağlam, cəmiyyətə faydalı vətəndaş kimi böyütmək həm çətin, həm də qürurverici bir işdir. Gənc nəslin vətənpərvərlik, tariximizə, milli kökümüzə bağlılıq, böyüklərə yüksək ehtiram və mənəvi zənginlik duyğuları ilə tərbiyə olunması, onların şəxsiyyət və vətəndaş kimi formalaşması üçün ailə də, dövlət də böyük məsuliyyət daşıyır. Buna görə də Azərbaycanda uşaq məsələlərinə dövlət tərəfindən həmişə diqqət yetirilir». Qeyd edilib ki, Vergilər Nazirliyi öz sosial məsuliyyət strategiyası çərçivəsində uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif tədbirlərə dəstək verir.

Uşaqlar azərbaycan dilində «Füsunkar şahzadə» cizgi filminə baxıblar, onlar üçün əyləncəli oyunlar təşkil edilib.



*1 saylı internat məktəbinin müəllimi Səfurə İbrahimova:* «Azərbaycan dövlətinin uşaq siyasətinin başlıca prinsipləri böyüməkdə olan nəslin keyfiyyətli təhsil və tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə yaşaması üçün zəruri şəraitin yaradılması, şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasıdır. Övladlarımızı savadlı və vətənpərvər ruhda böyütmək üçün əlimizdən gələni edirik»...

*1 saylı internat məktəbinin 3-cü sinif şagirdi Aydan Yusufova:* «Bu gün ən sevincli anlarımı yaşadım. Xüsusilə əyləncəli oyunlardan zövq aldım. Belə tədbirlərə tez-tez gəlmək istəyirəm»...

*8 saylı sanatoriya tipli internat məktəbinin 7-ci sinif şagirdi Aynur Mirzəyeva:* «Bizi tez-tez Heydər Əliyev Mərkəzinə ekskursiyaya aparırlar. Bu gün də çox əyləndik. Cizgi filminin maraqlı personajları vardı. İnsani hissləri, təmiz sevgini , yaxşılığı təbliğ edən bu qəhrəmanları heç unutmayacam».

*8 saylı məktəbin 7-ci sinif şagirdi Mədinə Bayramova:* «Bizim məktəbdə uşaqlar üçün İçərişəhərə, Şirvanşahlar sarayına, Qızqalasına, Heydər Əliyev Mərkəzinə ekskursiyalar təşkil edilir. Tarixi abidələri görürük, sərgilərdə oluruq... Mən belə gəzintiləri çox sevirəm. Çünki insan gəzdikcə öyrənir. Bu gəzintilər, maraqlı yerlərə ekskursiyalar dünyagörüşümüzü artırır»...

*1 saylı internat məktəbinin müəllimi Vəfa Qəribova:* «Uşaqların sağlam və xoşbəxt böyüməsi həmişə aktual olub. Çalışmalıyıq ki, onların məsumluğunu, təbəssümünü, xoşbəxtliyini qoruyub saxlaya bilək. Elə etməliyik ki, hər birimizin gələcəyi olan uşaqlar sağlam və elmli vətəndaşlar kimi böyüsünlər. Bütün bunlara nail olmaq üçün isə öz səylərimizi gücləndirməli və birləşdirməliyik.

Belə tədbirlər uşaqların mənəvi tərbiyəsində, cəmiyyətə inteqrasiyasında əvəzsiz rol oynayır. Bu baxımdan, Vergilər Nazirliyinin rəhbərliyinə və bütün əməkdaşlarına təşəkkürümü bildirirəm».

**Fəxriyyə İKRAMQIZI**

# Tələbə könüllülərə sertifikatlar təqdim olunub

**İyunun 1-də Vergilər Nazirliyində «Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması sisteminin tətbiqi» mövzusunda tədbir keçirilib.**



Tədbirdə çıxış edən vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov bildirib ki, ticarət festivalı dövründə Mədəniyyət və Turizm Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası və digər aidiyyəti qurumlar, o cümlədən Vergilər Nazirliyinin müvafiq strukturları qarşıya qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi istiqamətində birgə səmərəli fəaliyyət göstəriblər. Müəyyən edilmiş tapşırıqların icrası məqsədilə 6 iri ticarət mərkəzində («Nərgiz Mall», «28 Mall», «Port Baku», «Park Bulvar», «Metro Park», «Gənclik Mall») və «Bravo» hipermarketində zəruri proqram təminatı və avadanlıqlarla təchiz edilmiş ƏDV köşkləri təşkil olunub. Ticarət festivalı dövründə ƏDV-nin qaytarılması məqsədilə satıcı kimi qeydiyyata alınmaq üçün müraciət etmiş 44 vergi ödəyicisinin 268 təsərrüfat subyektinin vergi orqanında qeydiyyatdan keçməsi təmin olunub. Bununla yanaşı, qaydalarla müəyyən edilmiş hallarda malların satışının rəsmiləşdirilməsi prosesini əyani şəkildə göstərmək məqsədilə qeydiyyatdan keçmiş satıcıların təsərrüfat subyektlərində ünvanlı xidmətlər təşkil edilib.

Vergilər və Təhsil nazirlikləri arasında imzalanmış əməkdaşlıq memorandumuna uyğun olaraq, ticarət festivalı dövründə ali məktəb tələbələri könüllülük əsasında cəlb olunaraq, onlara təlimlər keçirilib, növbəlilik əsasında ƏDV köşklərində fəaliyyətləri təşkil edilib. Tələbə könüllülərin əsas fəaliyyət istiqamətləri xarici vətəndaşlarla ünsiyyətin qurulması, məlumatlandırma işləri, müvəkkil bank filiallarının ünvanının alıcılara izah edilməsi, daşınması mümkün olmayan mallara yerində baxış keçirilməsi, alıcıların ƏDV məbləğinin nağdsız geri qaytarılması istəyi olduqda elektron qaimə-fakturada bank kartının və ya hesabının rekvizitlərinin doldurulmasına köməklik göstərilməsi olub.

Tədbirin sonunda ticarət festivalında iştirak etmiş bir qrup könüllü tələbəyə sertifikatlar və məlumatlandırıcı bukletlər təqdim olunub.

# Cocuq Mərcanlı kəndində bayram şənliyi keçirilib

8 saylı Ərazi Vergilər İdarəsinin (ƏVİ) əməkdaşları tərəfindən Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin Novruz Aslanov adına tam orta məktəbində «1 İyun - Uşaqları Beynəlxalq Müdafiə Günü» münasibətilə «Vergilər uşaqların gözü ilə» mövzusunda inşa və rəsm yaradıcılıq müsabiqələri keçirilmişdir.

Müsabiqənin yekununa həsr olunmuş tədbirdə məktəbin rəhbərliyi və müəllim heyəti, şagirdlər iştirak etmişlər. Cocuq Mərcanlı kənd orta məktəbinin direktoru Zamin Həziyev qonaqları və digər görüş iştirakçılarını salamlayaraq kəndin işğaldan sonrakı vəziyyəti, burada aparılan abadlıq işləri, eləcə də rəhbərlik etdiyi məktəbin fəaliyyəti haqqında məlumat vermişdir.

8 saylı ƏVİ-nin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu şöbəsinin rəhbəri Səməd Əliyev müsabiqənin keçirilməsi və onun əsas məqsədləri barədə məlumat vermiş, yarışa qatılan uşaqları belə bir yaradıcılıq təşəbbüsünə qoşulduğuna görə təbrik etmişdir.

Sonda müsabiqəyə təqdim olunmuş inşa və rəsmlər qiymətləndirilmiş, qaliblərə diplomlar verilmiş, məktəbdə təhsil alan 50 şagirdin hər birinə 8 saylı ƏVİ adından hədiyyələr təqdim olunmuşdur.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin iyun və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin iyun və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa,
Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə
www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## BİR CÜMLƏ - BİR XƏBƏR

Cari il iyulun 1-dən öz səlahiyyətlərinin icrasına başlayacaq Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən ölkə ərazisində fəaliyyət göstərən bütün qida subyektlərinin qeydiyyatı aparılacaq.

Azərbaycan İrana elektrik enerjisinin ixracına başlayıb.

Bakının Baş Planının hazırlanması işlərinə beynəlxalq ekspertlər cəlb olunacaq.

2021-ci ilədək Avropa İttifaqına üzv ölkələr tərəfindən Azərbaycan iqtisadiyyatına yatırılacaq investisiyanın həcminin 30 milyard dollara çatacağı proqnozlaşdırılır.

Azərbaycan Avropa İttifaqının neftə olan tələbatının 5 faizini ödəyir.

# Ailə təsərrüfatları iqtisadiyyatın mühüm faktoruna çevrilir

Prezident İlham Əliyev Nazirlər Kabinetinin bu ilin birinci rübünün yekunu ilə bağlı iclasında ölkədə iş yerlərinin təkcə dövlət sektorunda deyil, özəl sektorda da yaradılması istiqamətində tədbirlərin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb. Bölgələrdə məşğulluğun artırılmasına xüsusi önəm verildiyini deyən ölkə rəhbəri bu məsələnin hər zaman dövlətin diqqət mərkəzində olduğunu bildirib: «Çünki bizdə əhali artır, bu il də, gələn illərdə də artacaq və bu imkanı yaratmalıyıq. Biz tədricən özünüməşğulluq sisteminə keçməliyik. Bu, vətəndaşlar üçün də daha əlverişlidir. Onların öz ailə büdcələri olacaq. Sadəcə, biz onlara kömək etməliyik. Kənd yerində onlara şərait yaradılmalıdır, mal-qara, ev quşları verilməlidir. Arıçılıq, heyvandarlıq burada çox böyük rol oynaya bilər ki, onlar öz büdcələrini özləri təmin etsinlər. Amma dövlət əlbəttə ki, ilk mərhələdə onlara kömək göstərəcək».

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə təmin edilmiş vətəndaşların hər biri bu aktivlər hesabına biznes planlarını tələb olunan səviyyədə reallaşdırmağa, ailə təsərrüfatlarını qurmağa nail olublar. Bu sahədə əldə edilən müsbət nəticələr proqramın gözlənilən səviyyədə özünü doğrultduğunu deməyə əsas verir. Özünüməşğulluq proqramı çərçivəsində onlarca rayonda işsiz və işaxtaran şəxsin ailə təsərrüfatının qurulması üçün aktivlərlə təminatı həyata keçirilib. Ötən il bu proqramdan 1232 ailə faydalanıb, bu il isə 35 minə yaxın şəxsin cəlb olunacağı proqnozlaşdırılır. Həmin insanların hər biri, ilk növbədə, proqram çərçivəsində təşkil olunan təlim kurslarında biznesin təşkili üzrə zəruri bilik və bacarıqlara yiyələnirlər ki, bu da onların aktivlərdən daha səmərəli istifadə edərək biznes-planlarını uğurla reallaşdırmaları, təsərrüfatlarını düzgün quraraq bacarıqla idarə etmələri üçün vacib rol oynayıb.

Ölkədə ailə təsərrüfatlarının sayının getdikcə artması iqtisadiyyatda mühüm faktorlardan olan ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına əlavə imkanlar açır, yeni vergi ödəyicilərinin yaranmasına stimul verir. Bütün ölkəni əhatə edəcək bu proqram ayrı-ayrı fərdlərin, onların timsalında ailələrin özünüməşğulluğuna yönəlsə də, nəticə etibarilə iqtisadiyyatda mühüm faktor olan kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, yeni iş yerlərinin açılması prosesinin daimi olması hədəfinə istiqamətlənib. Layihələrə cəlb olunan insanlar müəyyən müddətdən sonra gəlir əldə etməklə fəal vergi və sosial sığorta ödəyicisinə çevrilirlər.

**Özünüməşğulluq proqramı çərçivəsində onlarca rayonda işsiz və işaxtaran şəxsin ailə təsərrüfatının qurulması üçün aktivlərlə təminatı həyata keçirilib**

Dövlətimizin başçısı özünüməşğulluq proqramının geniş vüsət almasının vacibliyini önə çəkərək, bu işdə bütün aidiyyəti qurumların səfərbər olmasını diqqətə çatdırıb: «Artıq ilk addımlar atılıb və bu, həm dövlət orqanları, yerli icra orqanları, həm də özəl qurumlar tərəfindən həyata keçirilən layihələr olmalıdır. Çünki hər bir ailənin, hələ yoxsulluq şəraitində yaşayan ailənin imkanı olmalıdır ki, öz ehtiyacını özü ödəsin və biz artan əhali üçün gələcəkdə yeni iş yerləri lazım olacaq. Ona görə də məşğulluğun artırılması həmişə gündəlikdə duran məsələ olacaqdır».

**Rəşad SADIQOV**

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Kriptovalyuta alətlərinin hüdudları günbəgün genişlənir

Son illər informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin geniş vüsət alması maneəsiz informasiya və digər mübadilə əməliyyatlarının da artmasına səbəb olmaqdadır. Meydana çıxan bütün qeyri-müəyyənliklərə baxmayaraq, blokçeyn texnologiyaları, xüsusilə də kriptovalyuta alətləri elektron ödəmələr sisteminə daxil olaraq hüdudlarını genişləndirməkdədir.

**Blokçeyn platformasında rəqəmsal identifikasiya sistemi yaradılır**

Azərbaycan Mərkəzi Bankı (MB) qlobal müstəvidə sürətlə inkişaf edən texnoloji prosesləri izləyir, maliyyə-bank sektorunun daha da müasirləşdirilməsi istiqamətində tətbiq imkanlarını diqqətdə saxlayır. Bankın İdarə Heyəti sədrinin birinci müavini Alim Quliyev bildirib ki, MB blokçeyn platformasında rəqəmsal identifikasiya sisteminin yaradılması layihəsi üzərində işləyir və çox güman ki, 2018-ci ilin sonunda ictimaiyyətə təqdim ediləcək. Layihənin əsas hədəfi Azərbaycanın bank sektorunda rəqəmsallaşmanın genişləndirilməsi və müştəri məmnunluğunun artırılmasıdır. Kriptovalyutalarla bağlı MB-nin mövqeyinə gəlincə, A.Quliyev bildirib ki, hələ bu valyutanın konkret pul vahidi kimi formalaşması prosesi tam başa çatmayıb. Bankın kriptovalyutalarla bağlı mövqeyi konservativ olsa da, bu sahədə dünyada gedən proseslər yaxından izlənilir, virtual pulların riskli investisiya aləti olub-olmaması istiqamətində ciddi araşdırmalar aparılır. Kriptovalyutaların bir sıra hallarda qeyri-leqal pul transferlərinin, çirkli pulların yuyulmasında istifadəsi və bu pullardan əldə olunan gəlirlərin vergidən yayındırılması halları ilə bağlı kifayət qədər informasiyalar mövcuddur.

**Blokçeyn texnologiyalarının Azərbaycanda tətbiqi**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı qeyd edir ki, Azərbaycanda qabaqcıl informasiya, nano, maliyyə və kommunikasiya texnologiyalarının tətbiqi genişlənməkdədir. Artıq bu istiqamətdə dövlət-özəl əməkdaşlığının bariz nümunəsi kimi, blokçeyn texnologiyalarına əsaslanan və «X-Road» modeli üzrə Rəqəmsal Ticarət Qovşağı yaradılıb: «Blokçeyn texnologiyalarının tətbiqi, bütün dünyada olduğu kimi, Azərbaycanda da diqqətlə öyrənilir, risklər və imkanlar qiymətləndirilir. Ölkəmizin maliyyə-bank sektorunun keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, maliyyə xidmətlərinin daha da yaxşılaşması, maliyyə resurslarına əlçatanlığın genişləndirilməsi və qlobal miqyasda rəqabətədavamlılığın təmin olunması həm də blokçeyn texnologiyalarının səmərəli tətbiqindən asılı olacaq».

V.Qasımlı bildirib ki, blokçeyn və digər yeni maliyyə texnologiyalarının tənzimlənməsi zamanı dünya təcrübəsində istifadə edilən «qum qutusu» (sandbox) yanaşması Azərbaycanda da nəzərdən keçirilə bilər. Bir sıra dövlətlərdə - Sinqapur, Avstraliya, Hindistan, İrlandiya və digər ölkələrdə banklararası əməliyyatların blokçeyn üzərindən aparılması istiqamətində pilot layihələr mövcuddur ki, bundan da faydalanmaq olar. Həmin ölkələrin atdığı addımlar göstərir ki, yaxın gələcəkdə artıq banklararası bütün əməliyyatlar daha sürətli, effektiv, təhlükəsiz və ucuz şəkildə blokçeyn platforması üzərindən aparılacaq. Azərbaycanda da bu istiqamətdə təhlillərin daha da genişləndirilməsinə ehtiyac var: «Blokçeyn vasitəsilə daha da canlanacaq digər sektor isə ticarətdir. Ticarətin blokçeyn üzərində qurulması üçüncü tərəfləri ortadan qaldırmaqla ticarəti sadələşdirə, kriptoqrafik müqavilələr əsasında ixrac və idxalı daha təhlükəsiz edə, əməliyyat müddətini qısalda və xərcləri azalda bilər. Hazırda «Azexport»da blokçeyn texnologiyalarının tətbiqi istiqamətində araşdırmalar aparılır. Bu sahədə digər innovativ imkanların daha geniş araşdırılmasına ehtiyac var. Gələcəkdə blokçeyn texnologiyalarının irəliləməsi banklar, depozitarlar və notariuslar üçün yeni reallıqlar yaradacağını nəzərə alsaq, indidən hazırlıqlar görülməlidir. Blokçeyn texnologiyaları səhiyyə, mülkiyyət hüquqlarının müdafiəsi, istehlak, pul köçürmələri və «big data» kimi sahələrdə daha böyük fayda verəcək».



**Azərbaycanda qabaqcıl informasiya, nano, maliyyə və kommunikasiya texnologiyalarının tətbiqi genişlənməkdədir**

**Kriptovalyuta əməliyyatlarından əldə olunan gəlir vergitutma obyektidir**

Kriptovalyutanın elektron ticarətdə istifadəsi, onun dövriyyəsinin monitorinqi və vergi tənzimlənməsi sahəsində dünyadakı əsas inkişaf trendləri nəzərə alınmalı, araşdırmalar aparılmalıdır. ABŞ, Yaponiya, Fransa və digər inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanın da vergi qanunvericiliyində kriptovalyuta ilə əməliyyatlardan əldə edilən gəlir vergiyə cəlb olunur.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Şamil Ərəbovun sözlərinə görə, vergi sistemində davam etdirilən islahatların əsas strateji hədəflərindən biri şəffaflığı artırmaq və vergitutma bazasını genişləndirmək üçün beynəlxalq təcrübədə geniş tətbiq olunan «rəqəmsal iqtisadiyyatın» (digital economy) vergiyə cəlb edilməsidir. Bununla əlaqədar elektron ticarətin vergiyə cəlb edilməsi ilə bağlı Vergi Məcəlləsinə müddəalar daxil edilib: «Vergilər Nazirliyi dünya ölkələrinin vergi sistemində müasir çağırışları və əsas trendləri yaxından izləyir və beynəlxalq təcrübənin öyrənilməsinə önəm verməklə innovasiyaların tətbiqinə çevik reaksiya verməyə çalışır. Vergi inzibatçılığında qlobal meyillər və rəqəmsal transformasiyalar, vergi ödəyiciləri ilə münasibətlərin qurulmasında müasir texnologiyalardan istifadə edilməsi, blokçeyn və onun mövcud potensialı, Vergilər Nazirliyinin rəqəmsal transformasiya istiqamətində fəaliyyəti və s. kimi məsələlər bu gün aktuallığı ilə seçilir».

Ş.Ərəbov qeyd edib ki, blokçeyn texnologiyaları bir çox ölkələrin elektron hökumət idarəetmə təcrübəsində istifadə edilən müştərək bazadır. Hazırda dünya ölkələrinin vergi administrasiyaları tərəfindən populyar kriptovalyutalarla aparılan əməliyyatların vergiyə cəlb olunması imkanları ciddi müzakirə mövzusudur. Virtual pullar, o cümlədən kriptovalyutalar üzrə əməliyyatlar qeyri-sahibkarlıq fəaliyyəti kimi vergiyə cəlb olunmalıdır: «Qanunvericiliyə əsasən, rezident vergi ödəyicisinin gəliri onun Azərbaycan Respublikasında və hüdudlarından kənarda əldə etdiyi gəlirdən ibarətdir. Qeyri-rezident vergi ödəyicisinin gəliri isə Azərbaycan Respublikası mənbələrindən əldə olunan gəlirlərdən ibarətdir. Fiziki şəxsin əldə etdiyi kriptovalyutaların pul ifadəsində dəyərinin artmasından əldə olunan gəlirlər onun qeyri-sahibkarlıq fəaliyyətindən gəlirlərinə aid edilir. Buna görə də kriptovalyutaların satışından gəlir əldə edən şəxslər vergi orqanlarında uçota durmaqla VÖEN almalı, gəlirləri üzrə bəyannamə təqdim etməklə Vergi Məcəlləsi ilə müəyyən olunmuş dərəcələrlə gəlir vergisi ödəməlidirlər».

**Elbrus CƏFƏRLİ**

# Sabit vergi

Sabit vergi - fərdi şəkildə fəaliyyət göstərən fiziki şəxsin gəlirindən və dövriyyəsindən asılı olmayaraq ödədiyi dəyişilməz vergi məbləğidir. Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, Məcəllənin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslər üçün sadələşdirilmiş vergi üzrə sabit vergi məbləği müəyyən edilmişdir.

Sabit verginin ödəyiciləri və ödənilməli məbləğ:

- Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət - 30 manat;
- Fərdi foto, audio-video xidmətləri (fotostudiyalar istisna olmaqla) sahəsində fəaliyyət - 30 manat;
- Çəkməçi, pinəçi - 5 manat;
- Saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri - 10 manat;
- Fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşbaz, gözətçi və digər analoji işlər - 10 manat;
- Nəqqaşlıq emalatxanalarının fəaliyyəti - 20 manat.

Bu fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslər:

- qeydiyyatda olduqları yerdən asılı olmayaraq, həmin fəaliyyətin faktiki həyata keçirildiyi ərazi üçün müəyyən edilən vergi məbləğini ödəyirlər;
- eyni dövr ərzində müxtəlif əmsallar tətbiq olunan ərazilərdə fəaliyyət göstərərlərsə, bu zaman ən yüksək əmsal tətbiq edilən ərazi üzrə müəyyən olunmuş sabit vergi məbləğini ödəyirlər;
- fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduqları halda, hər bir fəaliyyət növü üzrə ayrıca qəbz alırlar;
- nağd pul hesablaşmaları zamanı alıcıya qəbz və digər ciddi hesabat blanklar təqdim etməlidirlər;
- fəaliyyətin göstərilib-göstərilməməsindən asılı olmayaraq, ödənilən sabit vergi geri qaytarılmır və növbəti dövrlərin (ay, rüb, yarımil və il) vergiləri ilə əvəzləşdirilmir;
- bu fəaliyyətə görə vergi orqanlarına bəyannamə verilmir.

***Hesablanması qaydası***

Sabit verginin hesablanması üçün aylıq verginin məbləği ölkə üzrə aşağıdakı əmsallar tətbiq olunmaqla müəyyən edilir:

- Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) - 2,0;
- Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində - 1,5;
- Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində - 1,0;
- digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) 0,5.

***Misal:*** Şənliklərdə aparıcılıqla məşğul olan şəxsin aylıq sabit vergisinin məbləği ayrı-ayrı şəhərlərdə aşağıdakı qaydada hesablanır:

| | |
|---|---|
| Bakı şəhərində: | 30 manat * 2 əmsal * 1 ay = 60 manat; |
| Gəncə şəhərində: | 30 manat * 1,5 əmsal * 1 ay = 45 manat; |
| Şəki şəhərində: | 30 manat * 1 əmsal * 1 ay = 30 manat; |
| Qazax şəhərində: | 30 manat * 0,5 əmsal * 1 ay = 15 manat. |

Fiziki şəxslər qeyd edilən fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduğu halda, «Sabit verginin ödənilməsi haqqında qəbz»i hər bir fəaliyyət növü üzrə ayrılıqda almalıdırlar.

***Maliyyə sanksiyası***

«Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almadan sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə görə vergi ödəyicisinə:

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 40 faizi miqdarında;
- təqvim ili ərzində belə hallara iki və daha çox dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Sabit verginin ödəyiciləri göstərdikləri işə (xidmətə) görə nağd pul hesablaşmaları apararkən alıcılara ciddi hesabat blankı olan qəbz təqdim etməlidirlər. Ödəyicilər fəaliyyət növünə uyğun olaraq ciddi hesabat blanklarını (alıcıya verilən qəbz formasını) öz vəsaitləri hesabına bu fəaliyyəti həyata keçirən mətbəələrə verdikləri sifariş əsasında əldə edirlər.

Qanunvericiliklə müəyyən edilmiş ciddi hesabat blankı olan qəbzdən istifadə etmədən nağd pul hesablaşmalarının aparılması, alıcıya qəbzin verilməməsi və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə görə:

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat;
- təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə 800 manat;
- təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə 1200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

***Ödəyicinin qeydiyyata alınması***

Sabit verginin ödəyicisi olan fiziki şəxs, əgər vergi orqanında uçota alınmamışdırsa, ilk növbədə, qeydiyyatda olduğu ərazinin vergi orqanına və ya vergi ödəyicilərinə xidmət mərkəzinə müraciət etməli və VÖEN almalıdır.

Fiziki şəxs yuxarıda qeyd olunan fəaliyyətə başlayanadək vergi orqanından «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almalıdır. Həmin qəbz yazılı müraciət edildikdə iki iş günündən gec olmayaraq, elektron qaydada müraciət edildikdə isə real vaxt rejimində verilir.

Şəxs öz istəyinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» ala bilər.

***Hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

## 2018-ci ilin iyun ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin may ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisi bəyannaməsini;
- Mədən vergisi bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini;
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin iyun ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlak** təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi cari ilin iyun ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar** 2018-ci ilin may ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi **cari ilin iyun ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən isə 2-ci rüb üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).
- **Xüsusi notarius**ların 2018-ci ilin may ayı üzrə hesabladığı gəlir vergisi **cari ilin iyun ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (cari ilin 2-ci rübü üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

- Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
- Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
- Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
- Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Məlumat mübadiləsi ilə bağlı Direktiv qəbul edilib

Avropa İttifaqı Şurasının təsdiq etdiyi yeni qaydalar paketində fiskal cinayətlərin qarşısının alınması, o cümlədən şirkətlərin benefisiar əmlakı barədə informasiyanın ictimaiyyət üçün açıq olması nəzərdə tutulur.

2015-ci ildə qəbul edilmiş 849-cu Direktivə düzəlişlər ödəmə sistemlərinin normal fəaliyyətinə maneçilik törətmədən qeyri-leqal maliyyələşmənin məhdudlaşdırılması məqsədi daşıyır. May ayının 14-də təsdiq edilmiş dəyişikliklər Avropa Parlamenti ilə 2017-ci ilin dekabrında əldə edilmiş və bu ilin aprel ayında təsdiqlənmiş sazişi tamamlayır. Yeni Direktiv şirkətlərin və trestlərin əmlakı ilə bağlı şəffaflığın artırılması məqsədilə benefisiar sahiblərin qeydiyyat məlumatlarını əldə etməyə imkan yaradır.

Direktivə əsasən, Avropa İttifaqına üzv dövlətlərin öz milli qanunvericiliklərinə uyğun olaraq daha geniş informasiya əldə etmək hüququ saxlanılır. Yeni Direktiv üzv dövlətlərin maliyyə kəşfiyyatı strukturları arasında əməkdaşlığın inkişaf etdirilməsinə yönəldilmişdir. Komissiyalardan çirkli pulların yuyulmasının qarşısının alınmasında çatışmazlıqları olan ölkələrdən maliyyə axınlarına qarşı diqqətli olmaq üçün əlavə tədbirlər görmək tələb olunur.

Hazırda Avropa İttifaqi Şurasının sədri vəzifəsini yerinə yetirən Bolqarıstanın maliyyə naziri Vladislav Qoranov demişdir: «Yeni qaydalar vəsaitlərin terrorçuların əlinə keçməsinin qarşısını almaq yolu ilə Avropada təhlükəsizlik səviyyəsinin yüksəldilməsi tələblərinə cavab verir. Bu qaydalar bizə vətəndaşların təməl hüquqlarını və iqtisadi azadlığını təhlükə altına almadan cinayətkar şəbəkələri dağıtmağa imkan yaradır».

# İranda sənaye müəssisələrinə 17,6 milyard dollar kredit veriləcək

Sənaye nazirinin müavini bəyan etmişdir ki, İran təqvimi üzrə 1397-ci ildə (miladi təqvimlə 2018-ci ilin martından 2019-cu ilin martınadək) ölkədəki istehsal müəssisələrinə 740 trilyon rial (təxminən 17,6 milyard dollar) borc veriləcək.

Hazırda «İranın kiçik müəssisələr və sənaye parkları» təşkilatına başçılıq edən Sadek Nəcəfinin sözlərinə əsasən, bu kreditlərin bir hissəsi dövlət büdcəsindən maliyyələşdirmə şəklində, qalanları isə banklar tərəfindən veriləcək.

Mayın 6-da İranın sənaye naziri Əli Rəhmani qeyd etmişdi ki, keçən il 28.602 istehsal müəssisəsinə bank kreditləri verilmişdir. Onun sözlərinə görə, ayrılan kreditlər ümumilikdə 200 trilyon rial təşkil etmişdir (4,76 milyard dollar). Yanvarın sonunda Nəcəfi bəyan etmişdi ki, üzümüzə gələn dörd il ərzində ölkə üzrə 20.000 kiçik sənaye qurumunda 161 min yeni iş yeri yaradılacaq. Bununla əlaqədar olaraq, kiçik müəssisələrin yenilənməsi və dəstəklənməsi üzrə proqram işlənib hazırlanmışdır.

İrandakı bütün sənaye müəssisələrinin 92 faizi kiçik müəssisələrin payına düşür, fəaliyyət göstərən 85 min sənaye müəssisəsindən 1700-ü iri, qalanları isə orta və kiçik müəssisələrdir.

# İsveçrə informasiya mübadiləsinə başlayıb

İsveçrənin Federal Vergi Administrasiyası (FTA) tərəfdaş ölkələrlə məlumat mübadiləsi aparmaq üçün vergilərlə bağlı ilkin qərar verdiyi barədə xəbəri təsdiqləmişdir. Mayın 8-də FTA tərəfindən yayılmış xəbərdə bildirilmişdi ki, Fransa, Almaniya, Böyük Britaniya, Niderland və Rusiya da daxil olmaqla ümumilikdə 41 ölkəyə aid 82 hesabat təqdim edilmişdir. Hesabatlar bu ilin əvvəlindən qüvvədə olan qərarları əhatə edir.

Bu məlumat OECD-nin BEPS layihəsinə müvafiq olaraq, İsveçrədə 2017-ci ilin yanvar ayının 1-dən qüvvəyə minmiş vergi məsələləri ilə bağlı qarşılıqlı yardım barədə Konvensiya çərçivəsində verilmişdir. Konvensiyanı imzalamış tərəflər vergilərlə bağlı məlumatların məzmununun dərhal açıqlanması barədə razılığa gəlmişlər - bu isə o deməkdir ki, əvvəlcədən sorğu verməsə belə, üzv dövlətə vergi informasiyası çatdırılır.

İsveçrədə ilkin vergi qərarları adətən kantonların vergi administrasiyaları tərəfindən verilir. Federal Şura inzibati yardım prosedurunu həyata keçirir və Konvensiya çərçivəsində tərəfdaş dövlətlərə istiqamətləndirici məruzələr təqdim edir. Bu, struktur qərarların beş kateqoriyasını əhatə edir: güzəşt rejimləri ilə əlaqədar qərarlar; sərhəddə ilkin qiymətqoyma barədə birtərəfli razılaşmalar və ya transfer qiymətləndirmə ilə bağlı digər birtərəfli qaydalar; gəlirlər barədə məlumatları dəqiqləşdirən qərarlar; daimi nümayəndəliklər barədə qərarlar.

# Rusiya altıillik vergi rejiminə hazırlaşır

Rusiya Prezidenti Vladimir Putin hazırda hökumətin üzərində iş apardığı altıillik vergi rejimini təsdiqləyəcəyini bəyan etmişdir. «Mən artıq mikroiqtisadi siyasətin sabitliyi barədə danışmışam, biz eyni nəticəyə vergi siyasətində də nail olacağıq, - Peterburqda keçirilmiş beynəlxalq iqtisadi forum çərçivəsində Rusiya-Fransa dialoqu zamanı çıxış edən Prezident Putin bildirmişdir. - Hazırda hökumət vergi rejimində müəyyən dəyişikliklər üzərində iş aparır, bu iş başa çatdıqdan sonra biz həmin rejimi qarşıdakı altı il üçün qəbul edəcəyik».

Rusiya Prezidenti qeyd etmişdir ki, işgüzar mühiti dəyişmək üçün hökumətin böyük bir proqramı var. Vergi məsələsi ilə bağlı isə bildirilmişdir ki, işgüzar dairələr vergi şərtlərinə əməl ediləcəyinə əmin ola bilərlər: inzibati əngəllər aradan qaldırılacaq, biznes üzərindəki təzyiqlər aşağı salınacaq: «Hələ həyata keçiriləcək çox işlər var. Bu, təkcə bizim problemimiz deyil. Mən bilirəm ki, dünyanın bir çox ölkələrində biznes bu təzyiqlərlə qarşılaşır».



# ABŞ-ın idxal rüsumları Avropada narahatlıq yaradır

Avropa Komissiyasının rəhbəri Jan-Klod Yunker bəyan etmişdir ki, ABŞ-ın polad və alüminium üçün rüsum tətbiq etmək barədə qərarına qarşı Avropa İttifaqının (Aİ) cavab tədbiri görməkdən başqa seçimi qalmır. Aİ-də belə hesab edirlər ki, ABŞ-ın birtərəfli qaydada tariflər müəyyənləşdirməsi özünü doğrultmamaqla yanaşı, Ümumdünya Ticarət Təşkilatının qəbul etdiyi qaydalarla da ziddiyyət təşkil edir. Bu addımın atılması sırf proteksionizm kimi qiymətləndirilir. Yunkerin sözlərinə görə, son aylarda Avropa Komissiyası poladtökmə sektorundakı izafi resurslar probleminin həlli istiqamətində ABŞ-la daim əlaqə saxlayır. Vuğulanmışdır ki, yaranan mürəkkəbliklər Aİ-dən gəlmir, əksinə, qurum bu addımın atılmasından zərər çəkir.

«ABŞ-ın atdığı addım mübahisəni Ümumdünya Ticarət Təşkilatı çərçivəsində nizamlamaqdan başqa yol qoymur, biz də ABŞ-dan idxal edilən bir sıra mallara rüsum qoymaq məcburiyyətindəyik. Biz Aİ-nin maraqlarını beynəlxalq ticarət qanunlarına tam riayət etməklə qoruyacağıq», - Avropa Komissiyasının başçısı bildirmişdir.

Avropa Parlamentinin rəhbəri Antonio Tayani də Aİ-nin rüsum məsələsində bütün məqbul yollarla cavab verəcəyini təsdiqləmişdir.

ABŞ-ın ticarət naziri Uilbur Ross isə Vaşinqton tərəfindən polad və alüminium üçün tarifləri artırılmasının Aİ ilə münasibətlərə mənfi təsir göstərməyəcəyinə əmin olduğunu qeyd etmişdir: «Hər kəsin, hər ailənin, hər ölkənin həyatında mürəkkəb dövrlər olur, burada qəribə heç nə yoxdur. Düşünürəm ki, bu məsələlərin hamısını zaman öz yoluna qoyacaq».

Trampın rüsumların artırılması ilə bağlı qərarına ABŞ-ın özündə də münasibət birmənalı deyil. Senatda bunu amerikalılar üçün əlavə vergi yükü kimi qiymətləndirənlər də var. ABŞ senatının maliyyə komitəsinə başçılıq edən Orrin Hatç Prezident Donald Trampın polad və alüminium idxalına tətbiq etdiyi yeni rüsumları ölkə vətəndaşları üçün əlavə vergi yükü kimi qiymətləndirmişdir: «Bu rüsumlar amerikalıların özləri üçün artırılmış vergi deməkdir. Bunun istehlakçılara, istehsalçılara və işçilərə mənfi təsirləri olacaqdır». Hatç administrasiyanın bu iqtisadi kursu dəyişdirməsinə nail ola bilmək üçün səylərini davam etdirəcəyini bildirmişdir.

Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp bu ilin mart ayında polad üçün 25 faizlik, alüminium üçünsə 10 faizlik idxal vergisi tətbiq ediləcəyini bildirmişdi. ABŞ artıq bir sıra ölkələrə, o cümlədən Çinə, Rusiyaya və Türkiyəyə bu rüsumu tətbiq edir. İyun ayının 1-dən isə həmin siyahıya Aİ ölkələri, həmçinin Kanada və Meksika da əlavə olunmuşdur. Bu ölkələrin hamısı rəsmi şəkildə etirazlarını bildirmiş və müvafiq cavab tədbirlərinə əl atacaqlarını bəyan etmişdir.

# Özbəkistan xarici maliyyə kəşfiyyatı orqanları ilə əlaqələri fəallaşdırır

Ölkə başçısı Şovkat Mirziyoyevin imzaladığı sərəncama əsasən, respublikanın hökumət dairələri Müstəqil Dövlətlər Birliyi və digər ölkələrin maliyyə kəşfiyyatı sahəsində çalışan qurumları ilə əlaqələri canlandıracaqlar.

Sənəd Özbəkistanın Baş prokurorluğu yanında yaradılmış iqtisadi cinayətkarlığa qarşı mübarizə departamentinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı «yol xəritəsini» təsdiq edir. Yeni departament vergi və valyuta cinayətlərinə və cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasına qarşı mübarizə qurumunun əsasında yaradılmışdır.

«Özbəkistan Respublikasının Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin vergi (maliyyə) orqanlarının rəhbərlərinin Koordinasiya Şurasına qoşulması məsələsinə baxılsın», - təsdiq edilmiş «yol xəritəsində» bildirilmişdir.

Prezident Ş.Mirziyoyev Koordinasiya Şurasına qoşulmaqla bağlı müvafiq nazirliklərə və dövlət qurumlarına iyulun 1-dək kompleks tədbirlər hazırlamağı tapşırmışdır. Tapşırığa əsasən, cinayət yolu ilə əldə edilmiş gəlirlərin qanuniləşdirilməsinə və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən Avrasiya qrupunun ekspertləri ilə birlikdə milli mübarizə sisteminin təşkilinin qiymətləndirilməsi ilə bağlı tədbirlər müəyyənləşdirilməlidir. Avqust ayına qədər müvafiq qərarın hazırlanması, qiymətləndirmə prosedurunun isə 2018-ci ilin sonuna qədər həyata keçirilməsi gözlənilir.

Bundan əlavə, tədbirlər proqramında Özbəkistanın «Eqmont» qrupu çərçivəsində öhdəliklərini yerinə yetirməsi, eləcə də bir sıra ölkələrin, o cümlədən Əfqanıstan, Cənubi Koreya, Tacikistan, İndoneziyanın səlahiyyətli orqanları ilə informasiya mübadiləsinin genişləndirilməsi və müvafiq sazişlər imzalanması nəzərdə tutulur.

Qeyd edək ki, «Eqmont» qrupu maliyyə kəşfiyyatı bölümlərinin beynəlxalq təşkilatıdır, dünyanın 130-dan artıq maliyyə kəşfiyyatı qurumunu birləşdirir.




## krossvord

**Yuxarıdan aşağı:** 1.Təbiətdə müxtəlif rənglərinə rast gəlinən qiymətli mineral; 2.Çevrənin mərkəzindən keçib onu iki bərabər hissəyə bölən düz xətt; 3.Hansısa bir ideyanın, biliyin tərəfdarı; 4.ABŞ-ın ən böyük şəhərlərindən biri; 5.Tasmaniya yaxınlığında ada; 6.Çin mafiya qruplaşması; 9.XIII əsrdə yaranan hind-avropa dili ailəsinə daxil dil. Pakistanın rəsmi dilidir; 13.Yemək üçün istifadə olunan qab; 15.Bəstəkara, dirijora və ya başqa görkəmli incəsənət xadiminə hörmət üçün verilən ad; 16.Kiçik Asiyada antik şəhər; 17.Şəhər kənarında və kurortlarda restoranları, qumarxanaları olan əyləncə yeri; 18.Bir-birindən çeşidli intervalda yerləşən, eyni zaman ərzində ən azı üç həmahəng səslənən tonun birləşməsi; 20.Bir və ya bir neçə teoremi sübut etmək üçün lazım olan köməkçi teorem; 21.Səhləbkimilər fəsiləsinə aid bitki cinsi. **Soldan sağa:** 1.Quba və Xaçmaz rayonları ərazisindən axan çay; 5.1919-cu ildə Versal müqaviləsi əsasında yaradılmış əmək münasibətlərini tənzim edən qurum; 7.Türkiyədə oriyental tipli xalq musiqisi janrı; 8.İtalyan aktrisasının soyadı. «İnadkarın ram edilməsi» filminin baş qəhrəmanlarından biri; 10.Bir idarə və ya müəssisənin tapşırığı və ya vəkaləti ilə iş görən adam, müvəkkil; 11.ABŞ-ın 20-ci prezidentinin soyadı; 12.İtaliyada kabus şəhər; 14.Mövsümi meyvə; 19.Dalmazkimilər fəsiləsinin bədrənc cinsindən olan çoxillik ot bitkisi (ballınanə, limonotu adları ilə də tanınır); 21.Müəllifin bilavasitə gördüyü, şahidi olduğu real faktlardan, hadisələrdən, adamlardan bəhs olunan kiçik ədəbi əsər; 22.Həndəsi fiqur; 23.Böyük musiqi-vokal əsərinin (opera, operetta, oratoriya) mətni; 24.1997-2001-ci illərdə Azərbaycanda fəaliyyət göstərən televiziya kanalı; 25.Müəyyən sözü tapmaq üçün üfüqi və şaquli kvadratlara bölünmüş fiquru hərflərlə doldurmaqdan ibarət intellektual oyun.



Ballınanə, limonotu adları ilə tanınan ot bitkisi

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Baksan; 2.Kurator; 3.Nüans; 4.Asetat; 5.Fondü; 6.Lirika; 9.Yava; 13.Fayl; 15.Opossum; 16.Sparta; 17.Stress; 18.Marazm; 20.İnter; 21.Fərar. **Soldan sağa:** 1.Bakenbard; 5.Fel; 7.Karfagen; 8.Anar; 10.Aytos; 11.Atatürk; 12.Şrift; 14.Qazon; 19.Pripyat; 21.Flora *(Kərimova)*; 22.Ritm; 23.Nebraska; 24.Akr; 25.Ekstremum.


Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

idman

# Velosiped idmanının BMX növü üzrə dünya çempionatına start verildi

**İyunun 5-də Bakıda velosiped idmanının BMX növü üzrə dünya çempionatının açılış mərasimi olub. Tədbirdə yarışın Təşkilat Komitəsinin sədri, Baş nazirin birinci müavini Yaqub Eyyubov, gənclər və idman naziri Azad Rəhimov, Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) birinci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin (UEC) Rəhbər Komitəsinin üzvü, dünya çempionatının keçirilməsi ilə bağlı yaradılmış işçi qrupun rəhbəri Sahib Ələkbərov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və digər şəxslər iştirak ediblər.**







Açılış mərasimində dünya çempionatının iştirakçılarını salamlayan Baş nazirin birinci müavini, Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov Azərbaycanın nüfuzlu yarışlara yüksək səviyyədə ev sahibliyi etdiyini vurğulayaraq deyib: «Böyük yarışların təşkilatçılığının Azərbaycana həvalə olunması ölkəmizin gündən-günə çiçəklənməsinin və inkişafının bariz nümunəsidir. «Bakı-2015» ilk Avropa Oyunları, «Bakı-2017» IV İslam Həmrəyliyi Oyunları kimi mötəbər yarışlar Azərbaycanda yüksək səviyyədə təşkil edilib. İdmanın bütün növlərinin inkişafına qayğı ilə yanaşan Prezident İlham Əliyevin sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi turnirin yüksək səviyyədə keçirilməsini təmin edəcək. Yarış meydançası bütün tələblərə cavab verir. İdmançılara uğurlar və qələbə sevinci arzulayıram. Yarışı açıq elan edirəm».

Açılış mərasimindən sonra «Challenge» kateqoriyasında yarışan kiçik yaşlı yeniyetmələrin mübarizəsinə start verilib.

Qeyd edək ki, iyunun 9-dək davam edəcək mötəbər yarışda 43 ölkədən 1500-dən artıq idmançı mübarizəyə qoşulub. Dünya çempionatında Azərbaycan 8 idmançı ilə təmsil olunur. «Challenge» kateqoriyasında yarışacaq velosipedçilərdən Xəyal İbrahimov, Soltan İsrafilov və Justinas Pavlovas mübarizəyə iyunun 6-da qoşulacaqlar. İyunun 7-də Orxan Məmmədov, Vüqar Nəsibov, Kənan Babayev və Yelmar Şahmarzadə çıxış edəcəklər. Elit kateqoriyasında yarışacaq Aqşin İsmayılov isə iyunun 8-də start xəttinə çıxacaq.

# Əməkdaşlıq memorandumu imzalanıb

**İyunun 2-də Təhsil Nazirliyi ilə Azərbaycan Velosiped İdmanı Federasiyası arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Sənədi təhsil nazirinin müavini Firudin Qurbanov və Azərbaycan Velosiped İdmanı Federasiyasının birinci vitse-prezidenti Sahib Ələkbərov imzalayıblar.**




Memorandumun imzalanmasında məqsəd tərəflər arasında 2018-2023-cü illərdə əməkdaşlığın əsas istiqamətlərini müəyyənləşdirmək, uşaq və gənclər arasında sağlam həyat tərzini təbliğ etmək, onların asudə vaxtının səmərəli təşkili üçün əlverişli mühit yaratmaq, gəncləri zərərli vərdişlərdən çəkindirmək, ölkənin velosiped idmanı üzrə yığma komandalarına ehtiyat idman qüvvələri hazırlamaq, habelə idmanın bu növünün kütləviliyini təmin etməkdən ibarətdir.

İmzalanma mərasimində çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək idmana göstərilən dövlət qayğısı, təhsil alanlar arasında sağlam həyat tərzinin təbliği, onlarda idmana marağın artırılması istiqamətlərində nazirlik tərəfindən görülən işlərdən danışıb. O, velosiped idman növünün maddi-texniki bazasının yaxşılaşdırılması, idmançıların ustalıqlarının və bu idman növü üzrə kütləviliyin artırılmasında birgə əməkdaşlığın əhəmiyyətini qeyd edib.

Azərbaycan Velosiped İdmanı Federasiyasının birinci vitse-prezidenti Sahib Ələkbərov çıxışında federasiya tərəfindən uşaq, yeniyetmə və gənclər arasında velosiped idmanının populyarlaşdırılması və idmanın bu növü ilə məşğul olanların sayının artırılması istiqamətində görülmüş işlər barədə məlumat verib. Sahib Ələkbərov həyata keçirilən tədbirlərin gənc nəslin sağlam həyat tərzinə istiqamətləndirilməsi, zərərli vərdişlərdən uzaqlaşdırılması baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib. O, bu baxımdan, federasiya ilə Təhsil Nazirliyinin birgə əməkdaşlığının səmərəli və faydalı olacağına əminliyini ifadə edib.

Qeyd edək ki, iyunun 5-9-da Bakıda velosiped idmanının «BMX Racing» növü üzrə dünya çempionatının keçirilməsi ilə əlaqədar Təhsil Nazirliyinin müvafiq əmri ilə məktəblilər arasında velosiped yarışları təşkil olunub. Aprelin 1-dən başlayan və iyunun 2-də başa çatan bu tədbirlər Azərbaycan Velosiped İdmanı Federasiyasının dəstəyi ilə keçirilib. Yarışlara Bakı, Gəncə, Sumqayıt, Mingəçevir şəhərləri, Abşeron, İsmayıllı, Zaqatala rayonları əhatə olunmaqla 4 minə yaxın məktəbli qatılıb.

mozaika

kosmos

## Kainatın soyuq qütbü

ABŞ-ın Aeronavtika və Kosmik Fəzanın Tədqiqi Agentliyi (NASA) Yerin orbitinə maddə hissəciklərini «mütləq sıfır» dərəcəsinədək dondurmaq ehtimalını öyrənəcək laboratoriya göndərib. BBC-nin məluatına əsasən, kainatın soyuq qütbü rolunu oynayacaq laboratoriyanın çəkisizlik şəraitində uzun müddət qalacağı ehtimal olunur. «Soyuq atom laboratoriyası» (CAL) Virciniya ştatından «Antares» raketi vasitəsilə Beynəlxalq Kosmik Stansiyaya göndərilib.



Laboratoriyada olan maqnit sistemi və lazer sayəsində Boze-Eynşteyn kondensatı (hissəciklərin Kelvin üzrə milyard hissəsinin temperaturunda olan maddə) əmələ gəlir. Bu, Kelvin üzrə «mütləq sıfır» dərəcəsinə (Selsi üzrə mənfi 273,15 dərəcə) bərabərdir. Hərçənd termodinamika qanunlarına görə, buna nail olmaq mümkün deyil.

Alimlər bildirirlər ki, «mütləq sıfır» dərəcəsində hissəciklərin xaotik hərəkəti tamamilə dayanır. Mikroqravitasiya sayəsində hissəciklər bu vəziyyətdə 10 saniyə qala bilər, amma Yerdə bu proses bir saniyədən də az davam edir. Kosmosun uzaq yerlərində minimal temperatur 2,7 Kelvin (Selsi üzrə mənfi 270,45 dərəcə) təşkil edir. NASA bəyan edib ki, orbital eksperiment zamanı kainatda ən soyuq məkan yaradılacaq. Agentliyin bəyanatında deyilir: «Soyuq atom laboratoriyası» bizi imkansız kimi görünən bu məqsədə çatdıra bilər».

Bu eksperiment Yerdə də aparılıb. Cenevrədəki Avropa Nüvə Tədqiqatları Şurasında (CERN) Kelvin üzrə 1,9 dərəcəyə qədər (Selsi üzrə mənfi 271,3 dərəcə) dondurulmuş maqnitlər mövcuddur. 2000-ci ildə Helsinki Texnoloji Universitetinin alimləri də maddəni «mütləq sıfır» dərəcəsinə yaxın dondura biliblər. Lakin orbital laboratoriyanın onlardan üstünlüyü çəkisizlik şəraitində işləməsidir. NASA-nın eksperimenti sayəsində qravitasiya və kvant fizikası, hətta sirli qaranlıq maddə haqqında yeni kəşflər də ola bilər.

«Mütləq sıfır» dərəcəsi haqqında alimlər ilk dəfə XVII əsrdə fərziyyələr irəli sürüblər. Bu termindən Frensis Bekon və Robert Boylun tədqiqat əsərlərində istifadə olunub. Daha sonralar fiziklər Satyendra Nat Boze və Albert Eynşteyn də bu mövzuda diskussiyalar aparıblar. Alimlər belə qənaətə gəliblər ki, Kelvin şkalası üzrə sıfır dərəcəsinə ancaq nəhəng rezervuarda nail olmaq mümkündür, çünki dondurulan maddədən çıxan istinin yayılması bunu tələb edir. Hətta kosmosda da «mütləq sıfır» dərəcəsinə nail olmaq imkansızdır. Belə ki, kosmik çəkisizlik şəraitində də kiçik hissəciklərin hərəkəti kinetik enerji, bu isə öz növbəsində istilik yaradır.

cəmiyyət

## Şahzadənin toyu və 680 milyon dollar gəlir

Britaniyanın içki və qəlyanaltı ilə məşğul olan kompaniyaları şahzadə Harri ilə amerikalı aktrisa və fotomodel Meqan Marklın toyu mövzusunda məhsullar istehsal etməyə başlayıb. «Şahzadə Harri və miss Meqan Marklın toyunun şərəfinə. Müqəddəs Georgi kilsəsi» sözləri yazılmış peçenyelər artıq toydan əvvəl satışa çıxarılıb. Toy mərasiminin keçirildiyi Vindzor qəsri yaxınlığında yerləşən pivə zavodu «Vindzor bağları» adlı məhsul istehsal edir.

Ekspertlərin fikrincə, təkcə içki və qəlyanaltılar Britaniya iqtisadiyyatına əlavə olaraq azı 80 milyon funt sterlinq (108 milyon dollardan çox) gəlir gətirib. «Brand Finance» konsaltinq kompaniyasının ilkin hesablamalara görə isə şahzadənin toyu ümumilikdə Birləşmiş Krallığın iqtisadiyyatını ən azı 500 milyon funt sterlinq (680 milyon dollar) zənginləşdirib. Mütəxəssislər gəlirlərin əsas hissəsini turistlərin, əsasən də ABŞ-dan gələn qonaqların axınında görür. Həmin günlərdə təkcə Vindzor qəsrinə 50 mindən çox amerikalının, ümumilikdə isə Birləşmiş Krallığa 350 min xarici turistin gəldiyi bildirilir. «Brand Finance» kompaniyasının hesablamalarına görə, turizmdən, nəqliyyat xidmətindən istifadədən və otel otaqlarının kirayəsindən 200 milyon funt sterlinq (270 milyon dollar) gəlir əldə olunub. Harri və Meqanın toyu ilə əlaqədar xüsusi bayram tədbirləri 150 milyon funt sterlinqə, toy üçün istehsal olunan xatirə suvenirlərinin alınması isə 50 milyon funt sterlinqə (68 milyon dollar) başa gəlib.

milli mətbəximiz

## Azərbaycan dolması «Euronews»da...



«Euronews» telekanalının «Açıqcalar» silsiləsinin növbəti buraxılışı Azərbaycan mətbəxinin şahzadəsi - dolmaya həsr olunub. Bu milli mətbəx nümunəsinin müxtəlif növləri var və ona olan sevgi ölkənin bütün bölgələri və millətlərini birləşdirir. Məhz dolma Azərbaycana məxsus kulinariya növü kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs siyahısına daxil edilib.

Verilişdə «Euronews» telekanalının reportyoru Qalina Polonskaya dolma haqqında ətraflı məlumat verib: «Dolma - Azərbaycanın qədim milli xörəklərindən biridir, ölkədə dolmanın 386 növü var. Dolma bükmək zərgərlik işidir və hər bir xanımın onu hazırlamaq üçün məxsusi sirri var». Verilişdə dolmanın hazırlanma qaydası haqqında Azərbaycan Milli Kulinariya Mərkəzi rəhbərinin müavini Ceyran Əsgərova danışıb. O, dolma hazırlamağı nənəsindən öyrəndiyini bildirib: «Azərbaycanda özünəməxsus dolma reseptini nəsildən-nəslə ötürmək ənənədir. Ət, düyü, göyərti, soğan, müxtəlif növ üzümün (ağ şanı, qara şanı) cavan yarpaqlarından hazırlanan Azərbaycan dolmasının ləzzətli olmasının əsas səbəbi yerli keyfiyyətli məhsullardır».

Reportajda qeyd olunub ki, Azərbaycanda bayram süfrəsini dolmasız təsəvvür etmək mümkünsüzdür.

robototexnika

## Robotlar üçün sinir sistemi

Robot, süni intellekt kimi anlayışlar artıq neologizm olmaqdan çıxıb, ümumişlək sözlərə çevrilib. Həm də bu sözlər özləri ilə yeni-yeni anlayışlar, texnologiya möcüzələri gətirir. Müasir robot texnikası indi kifayət qədər hərəkətlidir. Robotlar müxtəlif tapşırıqları yerinə yetirmək qabiliyyətinə malikdirlər. Buna baxmayaraq, onların əksəriyyəti müxtəlif obyektlərlə qarşılıqlı təmas zamanı çox vacib olan taktil həssaslıq hissindən məhrumdurlar. Bu çatışmazlığın aradan qaldırılmasına çalışan isveçrəli mühəndislər qrupu tərəfindən hazırlanmış ultranazik elastik kabellər toxunuş zamanı elektron siqnalları ötürə bilir.



Lozanna Federal Politexnik Məktəbinin mühəndisləri tərəfindən hazırlanmış bu həll barədə «Advance Materials» nəşri yazır ki, elastik kabellərin işləmə prinsipi insanın sinir toxumalarının fəaliyyətinə çox oxşardır. Yeni həllin əsasını təşkil edən optik lifin daxilində ətrafdan mərkəzə doğru onlarla cərgə elektrod yerləşdirilib. Bunun sayəsində qurğu təzyiqə, toxunuşa və hətta zədələrə reaksiya verə bilir. «Sintetik sinir» fərqli taktil elektrodların müxtəlif dərinlikdə yerləşməsi sayəsində yüklənməni bir-birindən ayıra bilir.

**Müdriklər deyib ki...**

*«Həyatın ölçüsü uzunluğu ilə deyil, ondan necə istifadə edildiyi ilə qiymətləndirilməlidir».*

*Mişel de Monten (1533-1592)*

